www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 28 iyun 2018-ci il Cümə axşamı № 137 (7026) Qiyməti 60 qəpik

Xəbər

**Azərbaycanlı diaspor liderinin dəhşətli ölümü - şkafda asılı tapıldı**

yazısı səh.2-də

Gündəm

**Ordumuzun möhtəşəm hərbi paradı - hədəf bəlli...**




Ali Baş Komandandan düşmənə aprel döyüşləri və Naxçıvan əməliyyatı xəbərdarlığı; Bakıdakı paradda Türkiyə hərbçilərinin də qatılması İrəvanı şoka salıb...

yazısı səh.7-də

**Prezident Bakının baş planının hazırlanmasına 4 milyon manat ayırdı**

yazısı səh.2-də

**AŞ PA-nın sabiq prezidenti Sorosu ittiham etdi**

yazısı səh.5-də

**ABŞ və İsrailin İranla bağlı planı işə düşüb**

yazısı səh.6-da

**ABŞ emissarı Bakıda - Uelsin gətirdiyi ismarışlar...**

yazısı səh.9-da

**Aqrar sektorun dərdi: kredit, sığorta...**

yazısı səh.10-da

**Əfqanıstan-"Taliban" problemi Bakıda çözülə bilər-mühüm gəlişmələr**

yazısı səh.9-da

**Türkiyədə seçki bitdi, müxalifət arasında dava başladı**

yazısı səh.3-də

**"İrandan gələn narkotik Şirvan və Cəlilabadda cəmləşir" - baş nazirin müavini**

yazısı səh.12-də

**QDİƏT-də sədrlik Azərbaycana keçdi**

yazısı səh.2-də

**Rusiyadan toyuq əti idxalı məhdudlaşdırıldı - "quş qripi" təhlükəsi**

yazısı səh.14-də

# PUTİNİN EMİSSARININ ƏLİYEVƏ GƏTİRDİYİ MÜHÜM MESAJ - İRƏVAN NİYƏ TƏLAŞLANIB?

Nikol Paşinyanın Qarabağ xofu - İrəvan Azərbaycan prezidentinin qarşısına kimi çıxaracağını bilmir; baş nazir prezidentin dalında gizlənir - iki səbəb; **erməni nəşri:** "Parad göstərdi ki, Bakı Rusiya, ABŞ və İsrailin dəstəyini alıb..."




yazısı səh.8-də

# Xəzərin hasarlarını uçurdan tapılmır

Gözlər yeni nazirdə; Muxtar Babayev dənizi xalqın istifadəsinə verə bilər

yazısı səh.4-də



*Səməd Seyidov:*

**"Yeni məruzəçiyə dedik ki, insan haqlarından Azərbaycana təzyiq aləti kimi istifadə etmək mümkün deyil"**

yazısı səh.5-də



*Elxan Şahinoğlu:*

**"Son sözü Azərbaycan ordusu deyəcək"**

yazısı səh.11-də



*Politoloq Nəzakət Məmmədova:*

**"Prezident üsul-idarəsinə keçməsi Türkiyənin qarşısındakı əngəlləri götürdü"**

yazısı səh.6-da

## Prezident Bakının baş planının hazırlanmasına 4 milyon manat ayırdı

**Azərbaycan prezidenti İlham Əliyev Bakı şəhərinin baş planının hazırlanması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, Bakı şəhərinin baş planının hazırlanması işinin təşkili üçün nüfuzlu beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan prezidentinin ehtiyat fondundan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə ilkin olaraq 4 milyon manat ayrılsın.**

Maliyyə Nazirliyinə bu sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.



## Deputat Azay Quliyev seçicilərini qəbul edib

**Milli Məclisin deputatı Azay Quliyev dünən seçicilərini qəbul edib. Musavat.com xəbər verir ki, deputat seçicilərini ayrılıqda dinləyərək onların problemləri ilə maraqlanıb.**

Müraciətlər əsasən əmlak, əfv, məşğulluq, hüquq məsələləri və digər mövzuları əhatə edib. Azay Quliyev seçicilərini narahat edən məsələləri daim diqqət mərkəzində saxladığını və onların həlli üçün müvafiq addımlar atacağını deyib.

Deputat bildirib ki, seçicilərin ona ünvanladığı müraciətləri aidiyyəti qurumlara göndərməklə yanaşı, onların icra vəziyyətini də daim diqqətdə saxlayır.

❑ Musavat.com



## Bu gün havanın temperaturu 41 dərəcə olacaq - xəbərdarlıq

**İyunun 28-də Azərbaycanda gözlənilən hava şəraiti açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən "Report"a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında iyunun 28-də hava şəraitinin günəşli olacağı gözlənilir. Şimal küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturunun Abşeron yarımadasında gecə 20-24, gündüz 33-38, Bakıda gecə 22-24, gündüz 36-38 dərəcə isti olacağı gözlənilir.

Atmosfer təzyiqi normadan aşağı 755 mm civə sütunu, nisbi rütubət gecə 60-65, gündüz 30-35 faiz təşkil edəcək.

Abşeron çimərliklərində sabah şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) şimal küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Dəniz suyunun temperaturu 24-25 dərəcə isti təşkil edəcək.

Cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) arabir güclənən şimal-qərb küləyi əsəcək. Dəniz suyunun temperaturu 25-26 dərəcə isti təşkil edəcək.

Azərbaycanın rayonlarında sabah hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 19-24, gündüz 36-41, dağlarda gecə 15-20, gündüz 23-28 dərəcə isti olacağı gözlənilir.

Tibbi-meteoroloji proqnoza gəlincə, iyunun 28-də Abşeron yarımadasında zəif küləklərin üstünlüyü, bəzi saatlarda durğun hava şəraiti, gündüz isti temperatur diskomfortu meteohəssas insanlar üçün əlverişsizdir.

# "Azərbaycan enerji layihələrinin reallaşmasında hər zaman ABŞ-ın dəstəyini hiss edib" - prezident İlham Əliyev

**Prezident İlham Əliyev ABŞ dövlət katibinin Cənubi və Mərkəzi Asiya məsələləri üzrə köməkçisinin birinci müavini xanım Alis Uelsi qəbul edib.**



APA-nın xəbərinə görə, xanım Alis Uels Əfqanıstan üzrə Beynəlxalq Təmas Qrupunun toplantısına Azərbaycanın ev sahibliyi etməsi ilə bağlı minnətdarlığını bildirib və bu tədbirin böyük önəm daşıdığını deyib. Qonaq bu yaxınlarda qeyd olunmuş Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyi və "Şahdəniz-2" layihəsinin rəsmi açılışı kimi çox tarixi tədbirlərdən az sonra Azərbaycana səfər etməsindən məmnunluğunu vurğulayıb. O, həmin mühüm hadisələrlə bağlı ABŞ prezidenti Donald Trampın Azərbaycan prezidentinə təbrik məktubları göndərdiyini xatırladaraq bu münasibətlə öz təbriklərini də çatdırıb.

Prezident İlham Əliyev D. Trampın bu iki mühüm hadisə ilə bağlı göndərdiyi məktublara, orada Azərbaycan və ikitərəfli münasibətlərlə əlaqədar ifadə etdiyi xoş fikirlərə görə minnətdarlığını bildirib, bunun əlaqələrin strateji önəmini bir daha nümayiş etdirdiyini söyləyib. O qeyd edib ki, Azərbaycan tərəfi ABŞ prezidentinin ölkəyə olan münasibətini yüksək qiymətləndirir. Eyni zamanda, dövlət başçısı Azərbaycanın həyata keçirdiyi nəhəng enerji layihələrinin reallaşmasına ABŞ hökumətinin verdiyi dəstəyin böyük önəm daşıdığını deyib. O bildirib ki, Azərbaycan hər zaman müxtəlif enerji layihələri, o cümlədən böyük əhəmiyyət daşıyan «Cənub Qaz Dəhlizi» layihəsinin reallaşmasında bu dəstəyi hiss edib.

Dövlət başçısı bəyan edib ki, Azərbaycan Əfqanıstan hökumətinə birbaşa və beynəlxalq səylər çərçivəsində dəstək göstərir və eyni zamanda NATO-nun Əfqanıstandakı Qətiyyətli Dəstək missiyasına öz töhfəsini verir. Bu missiyada Azərbaycan hərbçilərinin sayı artırılıb və Azərbaycan gələcəkdə də öz hərbçilərinin sayını artırmağa hazırdır.

Prezident daha sonra qeyd edib ki, xüsusilə Bakı-Tiflis-Qars dəmir yolu xətti işə düşdükdən sonra Azərbaycan Əfqanıstana böyük önəm daşıyan logistik dəstəyi təmin edir. Əfqanıstan üzrə Beynəlxalq Təmas Qrupunun toplantısı bunu bir daha nümayiş etdirəcək və Əfqanıstanda vəziyyətin sabitləşdirilməsi işinə böyük töhfə verəcək.

Xanım Alis Uels Azərbaycan prezidenti ilə görüşün Əfqanıstana dair məsələlər ətrafında fikir mübadiləsi aparmaq üçün yaxşı imkan yaratdığını deyib. O, Azərbaycanın Əfqanıstana və bu ölkənin xalqına davamlı dəstəyini və eləcə də Əfqanıstandakı Qətiyyətli Dəstək missiyasında Azərbaycan hərbçilərinin sayının artırılmasının ABŞ tərəfindən yüksək qiymətləndirildiyini nəzərə çatdırıb.

Söhbət zamanı Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin siyasi, iqtisadi, enerji və təhlükəsizlik sahələrində uğurla inkişaf etdiyi qeyd olunub, əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə edilib.

## Azərbaycanlı diaspor liderinin dəhşətli ölümü - şkafda asılı tapıldı

**Antalyada azərbaycanlı iş adamı yataq otağındakı şkafda ölü vəziyyətdə tapılıb.**



Musavat.com Türkiyə mətbuatına istinadən xəbər verir ki, Antalyanın Finike bölgəsində portağal ticarəti ilə məşğul olan 64 yaşlı azərbaycanlı Məcid Nuxiyev evinin yataq otağında ölü vəziyyətdə tapılıb. Mərhumu şkafda elektrik naqili ilə boynundan asılı vəziyyətdə aşkar ediblər.

Bölgəyə bağlı yeni məhəllədə fevral ayından bu günə qədər təkbaşına yaşayan azərbaycanlı Məcid Nuxiyevdən xəbər ala bilməyən ev sahibi iyunun 25-də saat 16.00 radələrində evə gedib. Ev sahibi qapının açılmaması və evdən gələn ağır qoxudan narahat olaraq polisə xəbər verib. Evə gələn polislər usta çağıraraq qapını açdırıb, ardınca evə giriblər. Məcid Nuxiyev evin yataq otağındakı paltar şkafında, elektrik naqili ilə boynundan asılı vəziyyətdə tapılıb. Aparılan ilkin araşdırma nəticəsində onun 5-6 gün öncə öldüyü təxmin edildi. Mərhumun meyiti Antalyada tibbi ekspertizaya göndərilib. Prokurorluq hadisə ilə bağlı istintaqa başlayıb.

Musavat.com-un məlumatına görə, əslən Kürdəmir rayonundan olan Məcid Nuxiyev Ukraynanın Lvov şəhərində yaşayırmış və burada Azərbaycan diasporunun rəhbəri olub.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**



## AŞ PA həmməruzəçilərinin Azərbaycana səfərinin vaxtı bilindi

**Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) Azərbaycan üzrə həmməruzəçisi Stefan Şennak bu ilin sentyabrında Azərbaycana səfər edəcək.**

Bu barədə "Report"un Qərbi Avropa bürosuna açıqlamasında həmməruzəçinin özü məlumat verib.

Onun sözlərinə görə, səfər çərçivəsində bir sıra dövlət rəsmiləri və vətəndaş cəmiyyətinin nümayəndələri ilə görüşlər keçirəcək.

Qeyd edək ki, S.Şennakla birlikdə Azərbaycana səfəri nəzərdə tutulan AŞ PA-nın digər həmməruzəçisinin qurumun hazırda Strasburqda keçirilən yay sessiyasında seçiləcəyi gözlənilir.

Xatırladaq ki, AŞ PA Sezar Florin Predanı qurumun Azərbaycan üzrə həmməruzəçisi vəzifəsindən kənarlaşdırıb. Onu əvəzləyəcək yeni həmməruzəçinin isə Avropa Şurası Komitəsinin mayın 29-da Parisdə keçiriləcək qapalı iclasında seçilməsi planlaşdırılırdı. Seçkilərin təxirə salınmasına səbəb bu vəzifəyə hələlik hansısa bir namizədin müəyyənləşməməsi olub.

## QDİƏT-də sədrlik Azərbaycana keçib

**Ermənistanın paytaxtı İrəvanda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına (QDİƏT) sədrlik Azərbaycana keçib.**

"Report" Ermənistan KİV-lərinə istinadən xəbər verir ki, sədrlik dünən İrəvanda baş tutan QDİƏT Xarici İşlər Nazirləri Şurasının 38-ci iclasında Ermənistandan Azərbaycana keçib.

Azərbaycan bu təşkilata 2018-ci ilin iyulundan dekabr ayına qədər sədrlik edəcək.

Azərbaycanı iclasda xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev təmsil edib.

Qeyd edək ki, QDİƏT 1999-cu ildə yaradılıb və tərkibinə 12 dövlət daxildir: Azərbaycan, Albaniya, Ermənistan, Bolqarıstan, Yunanıstan, Gürcüstan, Moldova, Rusiya, Rumıniya, Serbiya, Türkiyə və Ukrayna.

YENİ MÜSAVAT
N 137 (7026) 28 iyun 2018

**ADP sədri Sərdar Cəlaloğlunun Azərbaycan-Türkiyə konfederasiyasının yaradılması barədə təklifi bir çoxları tərəfindən tənqid edilsə də, partiya lideri bu istiqamətdə təbliğatından geri dönmür. O, ideyasının gerçəkləşməsi üçün səylərini davam etdirəcəyini bildirir.**

# Sərdar Cəlaloğlu Azərbaycan və Türkiyə prezidentlərinə müraciət etdi

## ADP sədri: "Konfederasiya məsələsində söz sahibləri Ərdoğan və İlham Əliyevdir"

### "Bu, Avropa ilə daha sıx əməkdaşlığımıza da yol açacaq"

ADP sədri partiyanın iyunun 26-da keçirdiyi İdarə Heyətinin toplantısında Türkiyədəki prezident seçkilərində yenidən qalib gələn Rəcəb Tayyib Ərdoğanı təbrik edərək, onu növbəti prezidentlik dönəmində Türkiyə-Azərbaycan konfederasiyası istiqamətində ciddi addımlar atmağa çağırıb. Artıq rəsmi müraciət də Türkiyə rəhbərinə ünvanlanıb.

**S.Cəlaloğlu "Yeni Müsavat"a açıqlamasında Azərbaycan prezidenti İlham Əliyevə də müraciət hazırladıqlarını bildirdi:** "Türkiyə prezidentinə həm müraciət etmişik, həm də bununla bağlı bəyanat vermişik. Hesab edirik ki, Dağlıq Qarabağ münaqişəsinin yeganə həlli yolu Azərbaycan-Türkiyə konfederasiyanın yaradılmasından keçir. Onsuz da biz faktiki konfederasiyanın bütün şərtlərinə uyğun fəaliyyət göstəririk. Ordularımız bir-birimizə kömək edir, xarici siyasətimiz uyğundur. Sadəcə, bu, rəsmən əks olunmalıdır. Ölkələrin hər birinə hərbi müdaxilə olarsa, bir-birinə kömək etmək üçün hüquqi əsaslar yaradılmalıdır. Hər bir Azərbaycan vətəndaşı dərk etməlidir ki, burada əsas söhbət Qarabağın azad edilməsindən gedir. Rus-erməni alyansına qarşı təkbaşına dura bilmədiyimiz, indiki gücümüzlə Rusiya amili qarşısında torpaqlarımızı azad edə bilmədiyimiz üçün konfederasiyaya ehtiyac var. Rusun ordusuna bərabər ordu ortaya çıxarmalıyıq. Belə bir konfederasiya Avropa ilə daha sıx əməkdaşlığımıza da yol açacaq. İyunun 26-da keçirilən hərbi paradda türk ordusu da iştirak etdi. Ali baş komandan kimi paradı İlham Əliyev qəbul edirdi, türk əsgəri onun qarşısından keçdi. Sual olunur, türk əsgəri başqa bir ali komandanın paradında iştirak edərdimi? Bütün bunlar onu sübut edir ki, biz artıq ordularımızı birləşdirmişik. Ərdoğana müraciətimizin bəhrə verəcəyinə inanıram. Bu gün (dünən-red.) yaxın saatlarda İlham Əliyevə də müraciətimi yollayacam. Prezident seçkilərindən sonrakı çıxışında ölkə başçısı namizədlərin verdikləri ideyalara, təkliflərə diqqətin ayrılacağını və lazımi qərarların veriləcəyini dedi. Mən də bu ideyanı prezident seçkiləri vaxtı vermişəm. Güman edirəm ki, İlham Əliyev bu konfederasiya ideyasının lazımi olduğunu nəzərə alacaq, Azərbaycan tərəfi bu istiqamətdə addımlarını atacaq. Necə ki, Rusiya ermənilərin yanından çəkilməyib, biz heç zaman bu ideyadan çəkilə bilmərik. Bu məsələ ancaq iki ölkə rəhbəri tərəfindən həyata keçirilə bilər. Eyni zamanda iki ölkənin parlamenti bu qərarı qəbul edə bilər. Dövlətin adından mən deyil, prezident çıxış edir. Onun üçün də iki ölkənin prezidentinə müraciət etməyi vacib bildik. Biz bunu rəsmiləşdirmək istəyirik ki, hər iki dövlətin rəhbəri bu məsələdə lazımi addımları atsınlar. Burada məsələ mütləq dövlət səviyyəsində olmalıdır. Burada əsas söz sahibləri Ərdoğan və İlham Əliyevdir. Ərdoğan bizi yaxud da biz əks tərəfi məcbur edə bilmərik ki, konfederasiya yaradılsın. Burada tərəflərin hər birinin hüquqları eynidir. Ərdoğan şəxsən belə bir konfederasiyanın yaradılmasında heç bir tərəddüd etməz. Onu tanıyıram, söhbətlərimiz də olub. Burada tərəddüd müəyyən mənada Azərbaycan tərəfdə ola bilər. O da Rusiyanın təzyiqləri ilə bağlı ola bilər. Konfederasiya ideyasının əsas səbəblərindən biri də Rusiyanın təzyiqlərini neytrallaşdırmaq üçündür".


Sərdar Cəlaloğlu

**ADP rəhbəri üzərinə gələn təzyiqlərin artmasından narahat olmadığını dedi:** "O şəxslər Qarabağın taleyini düşünmürlər. İstəyirlər ki, Azərbaycan düşdüyü bu vəziyyətdə uzun müddət qalsın, Rusiya boyunduruğuna təzədən girsin. Mən isə dövlətimizin müstəqilliyinin əbədi olmasını istəyirəm. Bu birliyə qarşı olmaq Azərbaycana, türkə qarşı düşmən olmaqdır. Ortaya çıxıblarsa, alternativ qoysunlar ki, biz rus-erməni birliyinə necə qalib gələ bilərik? Uzun illərdir ki, İlham Əliyev mövcud ağır şərtlərə baxmayaraq, Qarabağın əlimizdən çıxmasına hüquqi əsaslarla imkan verməyib. ATƏT-in Minsk Qrupunun bir məqsədi var ki, Qarabağı Azərbaycandan qoparıb ermənilərə versin. İnanıram ki, tezliklə konfederasiya yaradılacaq. Başqa bir yol görünmür. Belə olan halda Rusiya bitərəfliyini qorumağa məcbur olacaq. Etibar Məmmədov və digər bu ideyanın əksinə gedənlərin başqa ideyaları varsa, buyurub ortaya çıxsınlar. Əks halda, susunlar. Dağlıq Qarabağ münaqişəsi nə qədər uzanırsa uzansın, həlli yolu yoxdur. Konfederasiyanın yaradılması üçün başqa cəhdlər də edəcəm. Türkiyə və Azərbaycan ictimaiyyətinin qabaqcıl nümayəndələrini bu prosesə qoşulmağa çağırıram. Burada İsa Qəmbər, Pənah Hüseyn və digər bunlar kimi siyasətçilərin susmağını heç cür anlaya bilmirəm".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Türkiyədə seçki bitdi, müxalifət arasında dava başladı

## Politoloq: "Türkiyə müxalifəti Azərbaycan müxalifətinin vəziyyətinə düşə bilər"

**Türkiyədə prezident seçkisindən sonra müxalifət daxilində mübahisələr başlayıb. Xüsusilə də Cümhuriyyət Xalq Partiyasının (CHP) lideri Kamal Kılıçdaroğluna qarşı partiyadaxili üsyan qalxıb. CHP-li bir qrup deputat və partiya üzvləri partiyanın baş ofisinin binası qarşısına yığışaraq, bundan sonra Kılıçdaroğlu ilə eyni yola davam edə bilməyəcəklərini bəyan ediblər.**

CHP baş ofisi önündə yığışan partiya üzvləri Kılıçdaroğlu əleyhinə tənqidi fikirlər səsləndirərək, CHP sədrinin onlarla görüşməsini, həmçinin partiya rəhbərliyinin istefa verməsini tələb edirlər. CHP sədri Kamal Kılıçdaroğlunun köməkçiləri etiraz edən partiya üzvlərini sakitləşdirməyə çalışsalar da, etirazçılar baş ofisin binası qarşısında oturaq aksiyasını davam etdiriblər.

Məlumat üçün onu da qeyd edək ki, Türkiyədə Ədalət və İnkişaf Partiyasının (AKP) 16 illik hakimiyyəti dövründə əsas müxalifət partiyası olan CHP bu müddət ərzində keçirilən 13 seçkidən məğlub çıxıb. Bu dəfə isə analitiklər hesab edirdilər ki, partiya üzvlərinin təzyiqləri nəticəsində Kılıçdaroğlu duruş gətirməyib, istefa verəcək.

Lakin belə olmadı. CHP lideri Kamal Kılıçdaroğlu seçkidən sonrakı sükutu iyunun 27-də pozdu. Kılıçdaroğlu bütün səs verənlərə təşəkkür edərək, bildirdi ki, AKP iqtidarı fövqəladə vəziyyətdən sui-istifadə etməklə yetinməyib, həm də bütün inzibati resursları ilə rəqiblərinə basqı qurub, onları şantaj edib.

**Kamal Kılıçdaroğlu Ərdoğanı təbrik etməyəcəyini də deyib:** "Demokratiyaya inanmayan bir insan təbrik edilməz. Qanunverici və icraedici orqanları özünə bağlayan biri təbrik edilməz. Onun nəyini təbrik edəcəm? Bir partiyanın sədri olaraq məhkəmələrə hakim təyin edir, onumu təbrik edəcəm? Bir diktatorun nəyini təbrik etməliyəm ki?"

**Politoloqlar hesab edirlər ki, Kılıçdaroğlunun bu cür çıxışları, Ərdoğana qarşı belə danışması və məğlubiyyətini qəbul etməməsi onu uçuruma aparacaq. Nəticədə CHP öz nüfuzunu itirəcək. "Yeni Müsavat"a danışan politoloq Mübariz Əhmədoğlu bildirdi ki, Türkiyənin müasir cəmiyyətinin siyasi düşüncəsi çox dəyişib:** "Bu düşüncə hətta 6 ay bundan öncədən də fərqlidir. Xüsusən nəzərə alınmalıdır ki, Türkiyə cəmiyyətinin siyasətə münasibətində hədsiz çox mobillik yaranıb. Müşahidə etdik ki, keçirilən bütün rəy sorğularına görə Türkiyədə prezident seçkilərində ikinci tur gözlənilirdi. Hətta Kamal Kılıçdaroğlunun yaydığı məlumatdan da bunu müşahidə etmək olurdu. Söz yox ki, onlar bilirdilər ki, Ərdoğan irəlidədir. Ancaq hesab edirdilər ki, Ərdoğan 40 faiz səs toplayacaq və ikinci tura qalacaq. Türkiyədə həm yerli təşkilatların, həm də Türkiyə ilə bağlı tədqiqat aparan xarici təşkilatların keçirdiyi rəy sorğusunu da şübhə altına almaq olmaz. Çünki bunun üçün əsas yoxdur. Orada müxalifət son anda göründüyü kimi zəif deyildi. Ancaq əsas həlledici məqamda Türkiyə cəmiyyəti siyasi proseslərə çox çevik reaksiya verdi. Bütün bunlar isə seçkinin taleyini həll etdi. Müxalifət partiyalarının daxilində baş verənləri izləyirəm. Hesab edirəm ki, Kılıçdaroğlu, hər halda, nəzərə almalıdır ki, əhali dəyişiklik istəyir. Ən azından insanlar müxalifət partiyalarının yenidən qurulması tələbindədir. İnsanlar yeni şəxslərə meyllidir. Düşünürəm ki, Türkiyə cəmiyyəti köhnə siyasətçilərdən yalnız Ərdoğanla yola davam etmək fikrindədir. Ondan qalan bütün siyasi liderləri dəyişmək fikrindədirlər. Dəyişilənlər sırasında ilk yerdə gələn Kamal Kılıçdaroğludur. İndi onun müqavimət göstərib-göstərməyəcəyi öz partiyası daxilində əlavə problemlər yaradacaq".


Mübariz Əhmədoğlu

**Politoloq bildirib ki, Türkiyə müxalifəti Azərbaycan müxalifətinin vəziyyətinə düşə bilər:** "Kamal Kılıçdaroğlu vəzifəsindən möhkəm yapışsa, təbii ki, o, Azərbaycan müxalifətinin gününə düşəcək. Bu fikir təkcə Kılıçdaroğluna aid deyil. Bütün müxalifət partiyaları xalqın istəyinin əksinə davransalar, eyni vəziyyətə düşəcəklər. Bizim müxalifət də cəmiyyətdən gələn siqnalları, lazımi siyasi mesajları vaxtında doğru tuta bilmədi. Elə daim özünü partiyada saxlamağa çalışdı. Ona görə də bu gün Azərbaycanda müxalifətin vəziyyəti göz qabağındadır. Kılıçdaroğlu da həmin yolu gedəcəksə, Azərbaycanda baş verənlər orada da təkrarlanacaq".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 135(7026) 28 iyun 2018

# Xəzərin hasarlarını uçuran tapılmır - gözlər yeni nazirdə

## Muxtar Babayev dənizi xalqın istifadəsinə verə bilər

**Yayın qızmar istisində sərinlənməyin bir yolu da Xəzər çimərliklərinə üz tutmaqdır. Əlbəttə ki, sərinləmək üçün ilk növbədə gedib çimərliyə çatmaq, Xəzər sahili boyu kilometrlərlə uzanan hasarları aşmaq gərəkdir. İllərdir ki, bu mövzu hər yay fəslində gündəmə gəlir, deputatlar parlament kürsüsündən sahilboyu hasarların sökülməsi məsələsini qaldırıb tələblər səsləndirirlər.**



Hasarlar isə qalmaqdadır. Köhnə problemlərin həllində yeni təyin olunan nazirlərə ümidlər çoxdur. Onlardan biri də ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevdi. M.Babayev vəzifəyə təyin olunduqdan bir neçə gün sonra Bakını başına götürən pis qoxunun mənbəyini müəyyən edərək, bu problemin aradan qaldırılmasına nail oldu. Bundan başqa, nazirlik ictimai-iaşə obyektlərinin fəaliyyəti zamanı ayrılan tüstünün, qazların və iy-qoxunun yayılması, atmosfer havasını zərərli maddələrin təsirinə məruz qoyması, ətrafdakılara neqativ təsir göstərməsinə qarşı da addımlar atdı. Nazirliyin Ətraf Mühit üzrə Milli Monitorinq Departamenti restoranlardan havaya atılan tüstünün aradan qaldırılması üçün sahibkarlara və müvafiq icra hakimiyyətinə müraciət ünvanlandı. Yeni nazirin təşəbbüsü ilə qanunsuz olaraq kəsilən ağaclara, məhv edilən yaşıllıqlara görə cərimələrin artırılması da müzakirəyə çıxarılıb.

Bəs Xəzər sahili boyunca inşa edilən, Xəzərin ekoloji durumuna birbaşa təsir göstərən amillər, əsasən də qanunsuz hasarlamaya qarşı addımlar atılacaqmı?

Nəhayət ki, Xəzər sahilləri xalqın üzünə açılacaqmı?

Yada salaq ki, Xəzər sahillərinin hasarlanması məsələsi ilə bağlı deputat Zahid Oruc ölkə başçısına müraciət edərək sahilboyu inşa olunan fərdi evlərin əhatəsindəki hasarların sökülməsi təklifi ilə çıxış etmişdi.

"Nəinki dənizin kənarında, indi istənilən yerdə elə hasarlara rast gəlirsən ki, sanki bu adamlar hamıdan qorxaraq ətraflarına sədd çəkib. Nəyə lazımdır ki, bu hündürlükdə hasarlar?" deyən millət vəkili beynəlxalq təcrübədə bu halın yer almadığına diqqət çəkmişdi.

Xəzərin hasarlanması problemi parlamentdə ötən il müzakirə mövzusu olmuşdu və millət vəkili, xalq artisti Zeynəb Xanlarova dəniz kənarındakı villa sahiblərinin hasarlarını dənizin ortasınadək uzatdıqlarından danışmış, tədbir görülməsini istəmişdi.

Azərbaycanda 2003-cü il yanvarın 13-də Xəzər sahillərində şəxsi evlərin və obyektlərin tikintisini qadağan edən "Azərbaycan Respublikasında Xəzər dənizi sahillərindən istifadəyə dair bir sıra tədbirlər haqqında" sərəncam imzalanıb. Sərəncama əsasən, Nazirlər Kabineti, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Bakı və Sumqayıt şəhərlərinin icra hakimiyyətləri, habelə Abşeron, Siyəzən, Dəvəçi, Xaçmaz, Xızı, Neftçala, Salyan, Lənkəran, Masallı, Astara rayon icra hakimiyyətləri Xəzər dənizi sahillərində 130 metrlik məsafədə tikilən obyektləri sökməli idilər. 2003-cü il avqustun 4-də isə Azərbaycan prezidenti "Azərbaycan Respublikasında Torpaq Məcəlləsinə dəyişikliklər edilməsi haqqında" qanun layihəsini imzalamışdı. Hələ də qüvvədə olan həmin qanuna görə, Xəzər dənizinin sahillərinin 80-130 metrliyi dövlətə məxsusdur. Deməli, həmin ərazi satıla və özəlləşdirilə bilməz. Sonradan dəniz sahilində tikililər üçün normativ 30 metr təyin edildi. Hazırda 30 metrlik normativ də pozulub, bir çox rayonların ərazisində dəniz sahilinə, çimərliklərə gediş-gəliş son dərəcə məhdudlaşdırılıb. Söz yeni ekologiya nazirinindir.

**❑ E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# Kənd təsərrüfatı mafiyası iş başında - pambıqla baş kəsmək taktikası

## Pambıq tarlalarında zəhərlənmələrin arxasında ayağında yeyinti olan, həbs təhlükəsi ilə üzləşmiş sabiq və indiki məmurların dayandığı ehtimalı var

**Son 20 gündə pambıq sahələrində baş verən kütləvi zəhərlənmələr gündəmin əsas müzakirə mövzusudur.**

Bunu təxribat hesab edənlər də var, mütəxəssis çatışmazlığı ilə əlaqələndirənlər də. Zəhərlənmələrin Azərbaycanda yeni kənd təsərrüfatı nazirinin təyinatından ay yarım sonra təsadüf etməsi bəzi şübhələr doğurub. Pambıq sahələrindəki zəhərlənmələrin bir qəsd ola biləcəyi də müzakirə edilən mövzulardandır.

Azərbaycanda pambıq əkini hələ sovet dövründən olub və həmin dövrdə pambıqçılıqla məşğul olan mütəxəssislər var. Rəsmi qaynaqlardan belə aydın olur ki, onların təcrübəsindən bu gün də istifadə edilir. Bundan başqa, Azərbaycanda aqrar sahə üzrə geniş mütəxəssis potensialı var. Belə olan təqdirdə pambıq sahələrinə kimyəvi maddələrin düzgün səpilməməsi, təhlükəsizlik qaydalarına düzgün əməl olunmaması sual doğurur. Məgər sahələrin kimyəvi işlənməsi mütəxəssislərin nəzarəti altında gerçəkləşməyib? Ölkəyə bu məqsədlə gətirilən kimyəvi preparatlar müvafiq yoxlamadan keçirilməyib?

Tutaq ki, sahələrin kimyəvi işlənməsi mütəxəssis nəzarəti olmadan baş tutub, ölkəyə bu məqsədlə gətirilən kimyəvi maddələr yoxlanılmayıb.

Belə olubsa, bəs ötən illərdə niyə pambıq sahələrində zəhərlənmələr baş vermirdi?

İsmət Abbasovun, Heydər Əsədovun nazir işlədikləri dövrdə niyə zəhərlənmə olmurdu? Halbuki onların dövründə kənd təsərrüfatı sahəsində nəzarətsizlik, özbaşınalıq daha çox olub.

Ölkə prezidentinin bu sahəyə diqqət ayırması İnam Kərimovun təyinatı ilə növbəti mərhələyə keçdi. Çoxları onun kənd təsərrüfatında ciddi dönüş yaradacağını deyir. Əsas arqumentlərdən biri budur ki, İ.Kərimov rüşvətxor və korrupsioner deyil. Hər kəs kənd təsərrüfatı sahəsində durumun yaxşılaşacağını gözlədiyi vaxtda tarlalarda kütləvi zəhərlənmələr oldu.

Media təxribat versiyasını işləyib. Bəs bunun arxasında kim, ya da kimlər dayana bilər? Heç şübhəsiz ilk ağıla pullu, gəlirli, qara pulların meydan suladığı bu sahəyə vaxtilə rəhbərlik etmiş adamlar gəlir. Əlimizdə fakt olmadığından deyə bilmərik ki, bu təxribatların arxasında İsmət



Abbasov, yaxud Heydər Əsədovun dayanıb. Kənd təsərrüfatı sahəsində illərlə mafiyalaşmış təbəqə bu təxribatı törədə bilərmi? Ağlabatan versiyadır. Çünki onların hamısının barəsində araşdırmalar getdiyi deyilir. Milyonlarla manat dövlət vəsaitinin talan edilməsində şübhəli bilinən, həbs ehtimalı yüksək olan yüksək və orta ranqlı kənd təsərrüfatı məmurlarının bu cür ağır cinayətin təşkilatçısı olduqları yəqin ki, hüquq-mühafizə orqanları əməkdaşları tərəfindən yoxlanılır.

**Mətbuata isə bu mövzunu gündəmdə saxlamaq qalır.**

**❑ E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# "Dünya neft bazarı irandaxili təlatümə hazır deyil"

## Elnur Soltanov: "Sanksiyaların təsiri hesaba alınıb"

**ABŞ hökuməti bütün dünya şirkətlərinin noyabrın 4-dək İrandan neft alışını tam dayandıracağını gözləyir. Əks halda, onlar ABŞ-ın tətbiq etdiyi sanksiyaların təsiri altına düşəcəklər.**

"Amerikanın səsi" xəbər verir ki, bu barədə jurnalistlərə Dövlət Departamentinin yüksək vəzifəli rəsmisi məlumat verib. Departament nümayəndəsi bildirib ki, avropalı diplomatlarla görüşərək prezident Trampın İrana qarşı bərpa olunan sanksiyalarla bağlı məsələyə çox ciddi yanaşdığını onların nəzərinə çatdırır.

Yüksək çinli məmur onu da deyib ki, bütün şirkətlərin İran neftinin alışını dayandırması zamanı gəlib çatıb və bu, yalnız Avropaya deyil, Hindistan, Çin və Türkiyəyə də aiddir. Bu ölkələrin rəsmi şəxsləri ilə hələ danışıqlar aparılmayıb və ABŞ tezliklə bu danışıqları başlatmaq niyyətindədir.

Onu da qeyd edək ki, Böyük Britaniya, Fransa, Almaniya və bütövlükdə Avropa Birliyi ABŞ-ın İranla nüvə razılaşmasının qəti əleyhinə çıxıblar. Onlar İrandakı şirkətlərini "ikincili sanksiyaların" təsirindən qorumaq niyyətindədirlər.

**ABŞ-ın İrana qarşı sanksiyalarının dünya neft bazarına hansı təsirləri ola bilər? İran nefti bazardan çıxarsa, bu, qiymət bahalaşmasına gətirib çıxara bilərmi? Sualları cavablandıran ADA Universitetinin Xəzər Enerji və Ətraf Mühit Mərkəzinin direktoru Elnur Soltanov "Yeni Müsavat"a bildirib ki, 2015-ci ildə sanksiyalar götürüldükdən sonra İranın dünya bazarına çıxardığı əlavə neftin həcmi gündəlik 1 milyon bareldir:** "Sanksiyalardan sonra ən pis halda bazardan bu qədər neft azalacaq. Lakin bu proses xeyli vaxt aparacaq, yəni tədricən gedəcək. Çünki neft bu gün alınıb-satılan bir məhsul deyil. Bu gün yaxın bir neçə aydan sonranın alqı-satqısı həyata keçirilir, bu proses isə uzunmüddətli müqavilələrlə tənzimlənir. Yəni ABŞ-ın qərarı artıq bağlanmış olan müqavilələrə aid edilməyəcək. Digər tərəfdən, Avropa ölkələri ABŞ-ın İranla nüvə razılaşmasından çıxmasını heç də legitim bir qərar hesab etmirlər. Bu baxımdan, onlar birbaşa ABŞ-a qarşı çıxmasalar da sanksiyalara qoşulmaqda elə də həvəsli olmayacaqlar. Bütün bunlar o deməkdir ki, İran neftinin dünya bazarından çıxması yaxın aylarda mümkün olmayacaq".



**E.Sultanov hesab edir ki, ötən həftə OPEK-in gündəlik hasilatın 1 milyon barel artırılması qərarı ABŞ-ın İrana qarşı sanksiyaları nəzərə alınaraq qəbul edilib:** "Düzdür, Kanadada da qəza baş verib - keçici də olsa təsiri var. Eyni zamanda Venesuelada vəziyyət heç də yaxşı deyil. Lakin burada əsas hədəf İran idi. Səudiyyə Ərəbistanı İranla rəqib olduğuna görə bazarda qiymətin yüksəlməsinə imkan vermək istəmir. Çünki bu artım İranın mənafeyinə uyğun olar, onun siyasi cəhətdən zəifləməsinin qarşısını alar. Buna görə də hasilatın artırılması qərarı Səudiyyə Ərəbistanından dünyaya bir mesaj idi ki, qorxmayın, İrana olan sanksiyalar dünya bazarında neftin qiymətini yüksəltməyəcək. Biz əskik olan neftin bazara çıxarılmasını təmin edəcəyik, siz İrana qarşı sanksiyaları rahat həyata keçirin. Buna görə də düşünürəm ki, bazarda qiymətlərə təsir göstərəcək əsas amil İran daxilindəki vəziyyət olacaq. Burada vəziyyət qarışarsa, təlatümlər üzündən bazara daha az neft çıxarılarsa, onda qiymətlərdə artımlar ola bilər. Çünki bu variantı bazar hələ hesablamayıb. İrana qarşı sanksiyalar bazar oyunçuları tərəfindən artıq nəzərə alınıb - onlar uzağı qiymətə 2-3 dollar təsir göstərə bilər. Bazarın hesablamadığı amil irandaxili vəziyyətdir ki, orada artıq narazılıqlar qeydə alınır".

**❑ DÜNYA, "Yeni Müsavat"**

**AŞ PA-nın iyunun 25-də başlayan yay sessiyası davam edir. Sessiyanın ilk günlərində Azərbaycanla bağlı bir sıra mühüm qərarlar qəbul olunub. Belə ki, ölkəmizə siyasi məhbuslarla bağlı yeni məruzəçi təyin olunub. Məruzəçi İslandiyadan olan xanım deputat Thorhild Sunna Evarsdottirdir. Çingiz Qənizadə AŞ PA-nın Hüquq və İnsan haqları komitəsinin üzvü seçilib.**

# AŞ PA-nın sabiq prezidenti Sorosu ittiham etdi

## **Elman Nəsirov:** "Anti-Azərbaycan qüvvələrin bu sessiyada niyyətləri gözlərində qaldı"

## **Novella Cəfəroğlu:** "Səməd Seyidovu həm vururlar, həm də yanlarında saxlayırlar"

Sessiyada əsas diqqət Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidovun üzərində cəmləşmişdi. İki ay öncə AŞ PA-da sanksiya qərarı ilə üzləşən S.Seyidova bu dəfə hansı münasibətin göstəriləcəyi suallar doğurmuşdu. Gözləntilərin tam əksi olaraq, bu sessiya Azərbaycan üçün rahat keçir. Doğrudur, S.Seyidovun yerinə Serbiya üzrə yeni həmməruzəçi təyin edilib. Lakin nümayəndə heyətimizin rəhbəri yenidən AŞ PA-nın vitse-prezidenti seçilib.


Pedro Aqramunt

Sessiyanın başladığı gündən bu günə qədər ən önəmli açıqlamanı AŞ PA-nın keçmiş prezidenti, ispaniyalı parlamentar Pedro Aqramunt verib. O, Azərbaycan daxil, bir sıra ölkələrin təmsilçilərinə AŞ PA-da təzyiqlər göstərildiyini bildirib. Təəssüf ki, AŞ PA-da Corc Soros fondu tərəfindən maliyyələşdirilən lobbi qrupları və QHT-lər bəzi ölkələrə və deputatlara qarşı təzyiq göstərir, qurumun işinə mane olurlar.

**YAP-çı deputat, politoloq Elman Nəsirov AŞ PA-da Azərbaycanla bağlı baş verən son gəlişmələrə "Yeni Müsavat"da bu cür aydınlıq gətirdi:** "Azərbaycan dövlətinin siyasəti balanslaşdırılmış, tarazlı siyasətdir. Beynəlxalq təşkilatlarda da Azərbaycan bu siyasətini davam etdirir. Ən başlıcası, biz müstəqil siyasət həyata keçiririk. Avropa Şurası yürütdüyümüz bu siyasətdə istisna deyil. Bu qurumun üzvü olduqdan sonra üzərimizə öhdəliklər götürmüşük. Onları da yerinə yetiririk. Demokratiyada hər zaman irəliyə doğru gedirsən, orada zirvə yoxdur. AŞ PA-da bunu dərk etməmiş deyillər. Bu siyasətlə barışmayan, Azərbaycana qarşı daim diktə dili ilə danışmaq istəyən qüvvələr AŞ PA-da mövcuddur. Həmin qüvvələr münasib şərait yetişən kimi Azərbaycana qarşı təzyiqləri işə salırlar. Bu baxımdan yaxın zamanlarda Səməd Seyidova qarşı tətbiq edilən sanksiyalar dediklərimizin təsdiqi kimi dəyərləndirilə bilər. Budəfəki yay sessiyasında Azərbaycana qarşı təzyiqlərin yenidən işə salına biləcəyi barədə fikirlər var idi. Bunun üçün bəzi yollar da axtarıldı. Lakin Azərbaycanın tutduğu qətiyyətli mövqe, parlamentdə Səməd Seyidova qarşı olan təzyiqlərlə bağlı deputatlarımızın birmənalı mövqeləri, Avropa Şurasına kəskin təzyiq etmələri, üzərimizə götürdüyümüz öhdəlikləri hər zaman yerinə yetirdiyimizi önə çəkmələri burada mühüm rol oynadı. Eyni zamanda o da qeyd olundu ki, AŞ PA-nın özü islahatlara getməli, öncəliklə özü dəyişməlidir. Bu kimi iradları açıq şəkildə söylədik, nümayəndə heyətimizin rəhbəri də hər zaman bu iradları səsləndirir. Bu cür davranışlarımız müəyyən mənada öz effektini verdi. Nəticədə budəfəki sessiyada anti-Azərbaycan qüvvələrinin ölkəmizə qarşı düşündüyü ssenarilər baş tutmadı. Əksinə, bir çox hallarda daha yaxşı dividentlər əldə edə bildik. Səməd Seyidova qarşı AŞ PA rəhbərliyi səviyyəsində daha fərqli münasibətin şahidi oluruq. Onlar gördülər ki, biz haqq işimizi müdafiə edirik, heç kimin daxili işlərinə qarışmırıq. Eyni zamanda özümüzə qarşı bunun müqabilində lazımi münasibəti gözləyirik. Anti-Azərbaycan qüvvələrinin bu sessiyada niyyətləri gözlərində qaldı".

**Deputat P.Aqramuntun son açıqlamalarına da diqqət çəkdi:** "Aqramunt kifayət qədər təcrübəli siyasətçidir. Eyni zamanda o, AŞ PA-dakı bütün siyasi oyunları yaxşı bilir. Hamıya bəllidir ki, o, həm də AŞ PA-da kifayət qədər yüksək vəzifə tutub. Aqramunt çoxtərəfli siyasi oyunların da qurbanı olub. Ona qarşı da sanksiyalar tətbiq edilib. 10 il müddətində ona qarşı sanksiyalar qüvvədə qalacaq. Bütün bunlar onu deməyə əsas verir ki, Aqramunt bu qurumla bağlı nə deyirsə, deməli, oxuduqlarını, eşitdiklərini deyil, öz gözü ilə gördüklərini deyib, öz yanaşmasını ortaya qoyub. Aqramunt Sorosun adını çəkirsə, bu, təsadüfi deyil. Sorosun hansı işlərlə məşğul olduğu hər kəsə məlumdur. Bir sıra ölkələrdə onun pulları hesabına "narıncı inqilablar" həyata keçirilir, həmin inqilablardan sonra o ölkələr böhran, xaosdan çıxa bilmir. Bu isə müəyyən dairələrin mənafelərinə birbaşa xidmət edir. Sorosun maliyyəsi xaosu yaradan amil kimi çıxış edir. Bunun nəticəsində bəzi ölkələrlə diktə dili ilə danışa bilirlər, niyyətlərini həyata keçirməyə nail olurlar. Bu və ya digər ölkəni hədəfə alıb, niyyətlərini həyata keçirmək istəyirlərsə, demək, burada bəzi maraqlar var. Maraqlar olmadan kimlərinsə niyyətləri heç bir halda həyata keçirilə bilməz. Hər bir şeyin sonunda maliyyə məsələləri üzə çıxır. Soros da bu funksiyanı yerinə yetirir. AŞ PA-da bəzi qüvvələrə təsir etmək üçün həmin pullardan məharətlə istifadə edirlər. Çox təəssüflər olsun ki, AŞ PA kimi kifayət qədər nüfuzlu bir təşkilatın sıralarına əgər Soros kimi şəxslərin pulları sirayət edirsə, bu pullarla bəzi işlər görülürsə, demək, bu qurumda çox ciddi problemlər mövcuddur. AŞ PA mütləq islahatlara getməlidir. Əgər bu olmasa, mütləq dalana sonunda dirənəcək, dünyanın da gözündən düşəcək, təşkilata etimad sıfıra enəcək. AŞ PA ikili standartları kənara atmalıdır".

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu Azərbaycana təyin edilən yeni xanım məruzəçi barədə bunları dedi:** "Açığı, onu tanımıram. Ola bilər ki, üzdən tanıyım. Tez-tez məruzəçilərin dəyişilməsi elə də problem deyil. Azərbaycan hökumətindən ən çox onu istəyirəm ki, siyasi məhbus məsələsini birdəfəlik həll etsin. Belə təyinatlar da olmasın. Canımız bu siyasi məhbus problemindən qurtulsun. Xanım məruzəçi barədə onu yaxından tanıyandan sonra danışa bilərik, ondan olan gözləntilərimizdən danışarıq. İnanıram ki, bu xanım gəlib hökumətlə dil tapacaq, siyasilər azad olunacaq. Çingiz bəy AŞ PA-da komitəyə üzv seçildi. Bundan çox sevindik. Onun əli ilə müəyyən şəxsləri azad etdirə, bəzi işlər görə bilərik. Bütün hallarda hökumətimiz AŞ PA ilə münasibətləri daim müsbətdə saxlamalıdır. Səməd Seyidovu AŞ PA-da yaxşı tanıyırlar, onun üçün də həm onu vururlar, həm də yanlarında saxlayırlar. Səməd müəllimin yenidən AŞ PA-nin vitse-prezidenti olmasına münasibətim müsbətdir".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# "AŞ PA-nın sanksiyaları artıq keçmişdə qalmış məsələdir"

## **Səməd Seyidov:** "Yeni məruzəçiyə dedik ki, insan haqlarından Azərbaycana təzyiq aləti kimi istifadə etmək mümkün deyil"



**Azərbaycan Milli Məclisinin Avropa Şurası Parlament Assambleyasında (AŞ PA) nümayəndə heyətinin rəhbəri Səməd Seyidov iyunun 26-da AŞ PA-da islandiyalı Thorhildur Sunna Evarsdottirin Hüquq məsələləri və insan haqları komitəsində "Azərbaycanda siyasi məhbuslar" adlı hesabatın hazırlanması üzrə məruzəçi təyin edilməsinə münasibət bildirib.**

S. Seyidov APA-nın Avropa müxbirinə açıqlamasında deyib ki, yeni məruzəçi ilə söhbətləri olub: "Biz ona dedik ki, siz insan haqlarının müdafiəsi üçün gəlirsinizsə, xoş gəlirsiniz. İnsan haqlarından bir alət kimi istifadə edib Azərbaycana təzyiq göstərmək istəyirsinizsə, bu, mümkün olan şey deyil. Bununla bağlı mən məruzəçi ilə söhbət etmişəm. Əminəm ki, bununla bağlı işlərimizi davam etdirəcəyik".

Səməd Seyidov AŞ PA-nın ona qarşı sanksiya tətbiq etməsinə baxmayaraq, qurumun vitse-prezident seçilməsi ilə bağlı məsələyə aydınlıq gətirib.

**S. Seyidov APA-nın Avropa müxbirinə açıqlamasında bildirib ki, sanksiyalar yalnız bir neçə nəfər və komitə tərəfindən qoyulub:** "Bu sessiyada sanksiyaların nə qədər əhəmiyyətsiz olduğu göründü. AŞ PA-da vitse-prezident seçilmək özü özlüyündə böyük addımdır. Bildiyiniz kimi, seçilmə rotasiya qaydasında keçirilir. Burada qayda belədir ki, buna etiraz edə bilərdilər. Ancaq bir nəfər belə qalxıb etiraz etmədi. Onlar özləri də bilirlər ki, mən 18 illik fəaliyyətim boyunca həm Avropa Şurasının dəyərlərini, həm Azərbaycanın maraqlarını müdafiə etmişəm".

**S. Seyidov qeyd edib ki, AŞ PA sanksiyaları artıq keçmişdə qalmış məsələdir:** "Fəaliyyətimizi görürsünüz, nümayəndə heyətimiz çıxış da edir, siyasi partiyalarda vitse-prezidentlərimiz də var. Elşad Həsənov hüquq məsələləri üzrə məruzəçi kimi növbəti sessiyada çıxış edəcək. Azərbaycanı istəməyən qüvvələr çox çalışırlar, fəaliyyətdədirlər. Ancaq həqiqət öz yerini tutur. Nümayəndə heyətinin rəhbəri kimi biz bu sessiyada Azərbaycanın mövqeyini çox yüksək səviyyədə müdafiə edə bildim".

**"Qeyri-hökumət təşkilatları da insan hüquqlarının müdafiəçiləri kimi Azərbaycan üçün önəmlidir. Ancaq təəssüf ki, bəzi qeyri-hökumət təşkilatları müəyyən şəxslərin əlində oyuncağa çevirilib". Bunu da Səməd Seyidov qurumun yay sessiyasında çıxışı zamanı deyib. O bildirib ki, QHT-lər Azərbaycan üçün çox vacibdir:** "Bu mövzu həm də insan hüquqları müdafiəçiləri kimi vacib bir mövzudur. Biz fərqindəyik ki, hətta QHT-lər bəzən o qədər aktivdirlər ki, insanlar onlara hökumətin özündən çox inanır".

**S. Seyidov bu məsələdə inam və məsuliyyətin önəminə diqqət çəkib. O qeyd edib ki, bəzi QHT-lər, xüsusilə də xaricdən maliyyələşənlər hökuməti və ölkədəki mentaliteti dəyişmək istəyirlər:** "Onlar bəzi şəxslərin əlində oyuncağa çevrilib. Bunu Macarıstanda, Azərbaycanda görmək olar. Unutmamalıdırlar ki, xalq onlara inanır və onlar insanlar qarşısında məsuliyyət daşıyırlar. Bu problem Avropanın özündə də var. Böyük Britaniyada, Almaniyada da bunu görmək mümkündür".

YENİ MÜSAVAT
N 137 (7026) 28 iyun 2018

# ABŞ və İsrailin İranla bağlı planı işə düşüb

## Sanksiyalar təsirini göstərməyə başladı, sosial etirazlar baş qaldırdı

**İki gündür İranda paytaxt Tehran da daxil olmaqla, bir çox şəhərlərində iqtisadi vəziyyətə etiraz olaraq kütləvi aksiyalar başlayıb. Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, etirazçılar "Diktatora ölüm!" şüarları ilə parlament binasına doğru yürüməyə cəhd ediblər. İran polisi etirazçılara gözyaşardıcı qazla müdaxilə edib. Polislə etirazçılar arasında qarşıdurma yaranıb.**



Xatırladaq ki, İranın milli valyutası rial devalvasiyaya uğrayıb, nəticədə dollar 4 min tüməndən 7 min 500 tümənə qədər yüksəlib. Məhz bundan sonra etiraz aksiyaları başlayıb.

İranın ali dini liderinin hərbi müşaviri, general Yahya Rahim Səfəvi baş verənlərə görə hökuməti və prezident Həsən Ruhanini ittiham edib. O deyib ki, hökumət olmasa, ölkə daha rahat şəkildə idarə edilir.

Siyasi təhlilçilər hesab edir ki, İran iqtisadiyyatında geriləmələrin sürət götürməsi bu ölkəyə qarşı qəbul edilən sanksiyaların təsir göstərməyə başlamasının əlamətidir.

Politoloq Qabil Hüseynli bu barədə "Yeni Müsavat"a şərhində bildirdi ki, ABŞ və İsrail rəhbərliyi İranın daxilində böyük etiraz dalğasının yetişməkdə olduğuna, proseslərin onların xeyrinə getdiyinə bu yaxınlarda işarə ediblər. Cənub qonşumuza qarşı qəbul edilən sanksiyalar artıq təsirini göstərir: "Bir neçə gün öncə Donald Tramp İranla bağlı demişdi ki, bu məsələdə işlər çox yaxşı gedir. Amma söylədiyi fikirlərə başqa şərh verməmişdi. İsrail baş naziri Benyamin Netanyahu da bu yaxınlarda belə bir fikir ifadə etdi ki, biz istənilən vaxt İranda əhalinin sosial etirazlarına rəvac verə və o prosesi idarə edə bilərik. Amerika prezidenti və İsrail baş nazirinin bu bəyanatları təsadüfi deyildi və İranın daxilində sosial etirazların baş qaldıracağı gözlənilən idi. O bəyanatlar da ABŞ və İsrailin İranla bağlı bir sıra layihələri gerçəkləşdirmək fikrində olduğunu açıq şəkildə büruzə verirdi. Artıq İrana qarşı qəbul edilmiş sanksiyalar işləməyə başlayıb. Amma sanksiyalarda hələ ki Avropa dövlətləri, xüsusilə də Fransa və Almaniya bu proseslərə aktiv surətdə qoşulmurlar. Amma İran belə hesab edir ki, Avropa dövlətləri çox da dəyanət göstərməyəcəklər, Trampın təzyiqləri qarşısında İran əleyhinə sanksiyalara qoşulacaqlar. Bunu İranın bir neçə rəsmi şəxsi son 10 gündə dilə gətiriblər. Belə görünür ki, sanksiyalar artıq sürət götürməyə və İranın daxilindəki proseslərə təsir göstərməyə başlayır. Sanksiyalar İranın iqtisadiyyatına, daxili bazarına, valyuta bazarına ciddi surətdə təsir göstərməyə başlayıb. İranın milli pul vahidi rial ABŞ-ın nüvə sazişindən çıxdığını elan etdikdən sonra dəyər itirməyə start götürmüşdü. Sonradan bu proses daha da sürətli yön aldı. Beləliklə, İranda sosial, iqtisadi vəziyyətin gərginləşməsi açıq müşahidə edilməyə başladı. İran rəsmilərinin Avropa Birliyi ilə bağlı son bəyanatlarından sonra Avropa Birliyi ölkələri də sanksiyalara qoşuldular. Artıq İran üçün çətin bir vəziyyət yaranıb".

**Politoloq qeyd etdi ki, İran neftini satmaq üçün xarici bazar axtarmaqda olacaq. Belə bir böyük bazarın tapılması isə sanksiyalar üzündən kifayət qədər problemi görünür. Üstəlik də, ölkədən həm Amerika şirkətlərinin, həm Avropa şirkətlərinin axını prosesi başlayıb:** "Avropadan bunun qarşısının alınması üçün xüsusi göstəriş olmasına baxmayaraq, avropalı şirkətlər də vəziyyətin pisliyə doğru getdiyi qənaətindədirlər və bu səbəbdən özlərinin kommersiya maraqlarını düşünərək İranı tərk etməkdədirlər. Bütün bunlar onu göstərir ki, sanksiyalar ölkə iqtisadiyyatına öz təsirini göstərməyə başlayıb və çox da uzaq olmayan bir dövrdə sanksiyaların İran iqtisadiyyatına təsiri kritik həddə çata bilər. Ölkənin bəzi şəhərlərində sosial etirazların başlaması onu göstərir ki, İran beynəlxalq birlikdə kompromisə getməlidir. Nüvə məsələsi ilə bağlı ABŞ-ın irəli sürdüyü 10 tələbdən heç olmasa bir neçəsini yerinə yetirməsə, vəziyyət daha da ağırlaşacaq. İrana qarşı sanksiyalar böyük hədəflərə hesablanıb. Bu hədəflər sırasında İranın yaxın Şərqin bir sıra nöqtələrindən çıxarılması və ölkənin daxilində genişmiqyaslı xalq etirazlarını yetişdirib İranda siyasi rejim dəyişikliyinə nail olunması dayanır".

❑ **Etìbar SEYİDAĞA,
"Yenì Müsavat"**



# Prezident üsul-idarəsi Türkiyəyə nə verəcək?

## Politoloq: "Türkiyənin prezident üsul-idarəsinə keçməsi qarşısındakı əngəlləri götürdü"

**24 iyunda Türkiyədə növbədənkənar seçkilər keçirildi. Hazırkı dövlət başçısı Rəcəb Tayyib Ərdoğan seçkiyə qatılan 88 faiz seçicinin 52,5 faizinin səsini alaraq yenidən prezident seçildi. Bununla da artıq Türkiyə prezident üsul-idarəsi ilə idarə olunacaq.**

Bəs prezident üsul-idarəsi Türkiyəyə nə verəcək?

"Yeni Müsavat"a danışan **politoloq Nəzakət Məmmədova** bildirib ki, hələ 2016-cı ildə Türkiyədə çevriliş cəhdindən sonra bir çox məqamlar bəlli oldu: "Bu hadisədən sonra Türkiyədə fövqəladə hal elan olundu və indiyə qədər də bu, davam edir. Siyasi sistemin dəyişdirilməsi zərurəti bu olaylardan sonra başladı. Türkiyənin idarəçilik sistemini dəyişdirməsinə səbəb hərbi çevriliş cəhdi, ölkə ərazisində davamlı sürətdə baş verən terror aktları, dövlətin daxilində FETO şəbəkəsinin kök salması kimi daxili səbəblər oldu. Xarici təhdidlərə gəlincə isə Türkiyənin Suriya ilə sərhədi boyunca yeni dünya düzəninin yaranması prosesi gedir. Yaxın Şərq bunun episentridir və Türkiyə isə ərazi bütövlüyünün parçalanması təhdidi ilə üz-üzə qalıb. Qısası, demək olar ki, Türkiyəyə həm daxili, həm də xarici təhdidlər var. Bu isə təxirəsalınmaz qərarlar verilməsini tələb edir. Yəni terror aktı, çevriliş cəhdi olarsa, buna ölkənin siyasi rəhbərləri dərhal cavab verib, adekvat tədbirlər görməlidir. Lakin Türkiyənin parlament sistemi bunun qarşısında bir əngəl idi. Təbii ki, parlament sistemi demokratik sistemdir və 1923-cü ildə Atatürk tərəfindən Türkiyədə əsası qoyulub. Ancaq Ərdoğanın hakimiyyətə gəldiyi dövrdən bəri olan Türkiyənin beynəlxalq vəziyyəti 1920-ci illərdəki halından çox fərqlidir. 1923-cü ildən bəri Türkiyə Qərbə meyllənib, NATO-nun üzvü olub və sairə. Yəni Türkiyə Ərdoğana qədər daha çox Qərblə, İsraillə, ABŞ-la müttəfiq idi. Buna görə də Türkiyəyə qarşı təhdid yox idi. AKP hakimiyyəti dövründən sonra Yaxın Şərqdə "Böyük Orta Şərq" layihəsinin icrasına başlanıldı və bölgə ölkələrinə qarşı təhdid yarandı. Belə olan təqdirdə bütün bu təhdidlərin qarşısında Türkiyə parlament üsul-idarəsi ilə duruş gətirə bilməzdi. Çünki ölkənin siyasi rəhbərliyi qərar qəbul edirsə, parlament üsul-idarəsində bu, bir neçə mərhələdən keçərək və zaman itkisi ilə nəticələnəcək. Müzakirə edən zaman da parlamentdə müxtəlif qüvvələr, məsələn, PKK-ya qarşı radikal addıma etiraz edirdilər. Artıq idarəetmədə bu kimi maneələr, əngəllər olmayacaq".

**Politoloq bildirib ki, dəyişiklik Türkiyə üçün çox doğru bir addımdır:** "Ərdoğanı qınayırlar ki, guya o, avtoritarizmə yuvarlanır. Hətta Qərb ölkələrində bir az da irəli gedib, onu diktator adlandırırlar. Bu fikirlər kökündən yanlışdır. Çünki Ərdoğanın buna ehtiyacı yoxdur. Onun xalq arasında nüfuzu böyükdür. Ərdoğan referenduma getməyi belə izah etdi ki, bundan sonra Türkiyəyə qarşı böyük təhdidlər gözlənilir. Doğrudan da bu, belədir. Çünki görünən budur ki, dünyada bundan sonra uzun müddət sabitlik olmayacaq. Ən əsası da dünya düzəninin dəyişməsi prosesi Türkiyənin sərhədləri yaxınlığında baş verir. İran təhdid olunur, Ermənistanda qərbpərəst qüvvələr hakimiyyətə gəldi. Belə bir şəraitdə prezidentin səlahiyyəti geniş olmalıdır, ölkənin suverenliyini, təhlükəsizliyini təmin edə bilsin. Ona görə də prezident üsul-idarəsi Türkiyəyə divident gətirəcək. AKP hakimiyyəti bu dəyişikliklə öz hakimiyyətlərini yeni bir mərhələyə çıxardı. Çünki sistem ölkənin hazırkı daxili və xarici siyasətinə adekvatdır. Düşünürəm ki, bu seçkilərdən sonra Türkiyə yenə də Qərbə, ABŞ-a boyun əyməyəcək. Eyni zamanda Türkiyəyə qarşı təhdidlər də davam edəcək. İslam dünyasının liderliyi uğrunda ambisiyalar davam edəcək. Yaxın Şərqdə Osmanlı imperiyasının nüfuz dairəsinə daxil olan ölkələrdə Türkiyə yenə də öz təsirini artırmağa çalışacaq. Biz bunu Ərdoğanın səfərlərindən, Türkiyə şirkətlərinin yatırımından da görürük. Türkiyənin xarici siyasətində əsas prioritet NATO və ABŞ-dan uzaqlaşmaq, onların göstərişlərini yerinə yetirməmək və vaxtilə Osmanlının nüfuz dairəsinə daxil olduğu ərazilərdə öz nüfuzunu bərpa etməkdir. Bunu Şimali Afrikada, Yaxın Şərq məsələsində də çox aydın şəkildə görürük. İsraillə münasibətlərə son qoyulur, daha çox İslam dünyasının problemlərinə, Qüds, Fələstin məsələsinə diqqət edilir. Ərdoğan və onun ailəsi bu məsələdə çox aktivdir. Bu hal da Ərdoğanın piarına müsbət təsir göstərdi. Məsələn, Arakanda Ərdoğanın həyat yoldaşı humanitar yardım payladı, Afrikada, Somalidə bütün bunları gördük. 3 milyon suriyalıya Türkiyə vətəndaşlıq verib. Bununla Ərdoğan İslam dünyasının lideri olmaq ambisiyasını ortaya qoyub. Bilirik ki, ərəb ölkələri, İran və Türkiyə bu ambisiyadadır. Ancaq daha çox Ərdoğanı qəbul edirlər. Türkiyənin əsas problemi iqtisadiyyatıdır. Yəqin ki, Ərdoğan yaxın müddətdə bu problemlə məşğul olacaq. Çünki iqtisadi rifah olmalıdır ki, xalq Ərdoğandan razı qalsın. Qarşıdan bələdiyyə seçkiləri gəlir. AKP istəyəcək ki, orada da üstünlük qazansın. Parlamentdə isə yenə də müxalifətçilər öz mövqelərini saxlaya biliblər. Çünki bilirlər ki, onların yeganə sığındıqları qala parlamentdir. Eyni zamanda müxalifət bələdiyyə seçkilərinə də önəm verir. Yəqin ki, AKP bələdiyyə seçkilərində də qalib gəlməyə çalışacaq. Ərdoğanın qələbəsi müxalifəti dəstəkləyən Amerikanın təzyiqlərini, ittihamlarını artıracaq. İndiyə qədər Qərb öz adamlarını həm hərbi çevriliş, həm də seçki yolu ilə hakimiyyətə gətirə bilməyib. Bundan sonra Qərb Ərdoğanın müstəqil siyasətinə sərt reaksiyalar verəcək. Artıq Amerika bəyan edib ki, Türkiyə "S-400" alarsa, ona qarşı sanksiya tətbiq edə bilərik. Türkiyəni özlərinə tabe etmək üçün bundan sonra hər yola əl atacaqlar. İqtisadi təxribatlarla, daxildəki müxalifətə dəstək verməklə Qərb öz siyasətini davam etdirəcək. Çox güman ki, PKK da yenə də Türkiyə daxilində terrora cəhd edəcək. Eyni zamanda Suriyada Amerika yenə də kürdləri siyasi fəaliyyətə qoşacaq. Türkiyəyə qarşı təzyiq və təhdidlər davam edəcək. Çünki Türkiyəni itirmək istəmirlər. Türkiyəyə hakim olmaq Yaxın Şərqə hakim olmaq deməkdir.

❑ **Əlì RAİS,
"Yenì Müsavat"**



# Ordumuzun möhtəşəm hərbi paradı - hədəf bəlli...

## Ali Baş Komandandan düşmənə aprel döyüşləri və Naxçıvan əməliyyatı xəbərdarlığı; Bakıdakı parada Türkiyə hərbçilərinin də qatılması İrəvanı şoka salıb; **hərbi ekspert:** "Yaxın bir neçə aya hərbi paradın əks-sədasını hiss edəcəyik..."

**İyunun 26-da, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə Bakının Azadlıq meydanında möhtəşəm hərbi parad keçirilib. Ali Baş Komandan İlham Əliyev, birinci vitse-prezident Mehriban Əliyeva, dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, xarici ölkələrin respublikamızdakı səfirləri, hərbi attaşeləri, beynəlxalq təşkilatların əməkdaşları, yubiley tədbiri ilə əlaqədar ölkəmizə gələn nümayəndə heyətlərinin rəhbərləri, müharibə veteranları və paytaxt ictimaiyyətinin nümayəndələri hərbi paradı izləyib.**

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov prezident, Ali Baş Komandan İlham Əliyevə raport verib. Ölkə başçısı paradda iştirak edən şəxsi heyəti salamlayıb. Daha sonra nitq söyləyib. Bunun ardınca şəxsi heyətin keçidi olub. Müdafiə, Daxili İşlər, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Təhlükəsizliyi, Dövlət Sərhəd və Xüsusi Dövlət Mühafizə xidmətlərinin, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələrinin parad heyətindən ibarət 4000 nəfərədək şəxsi heyəti tribuna önündən keçdi. Daha sonra hərbi texnika və uçuş vasitələri nümayiş etdirildi. Təntənəli mərasimdə 240-dan çox hərbi texnika, 70-dən artıq uçuş vasitəsi, o cümlədən silahlanmaya yeni qəbul edilmiş ən müasir zirehli texnikalar, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni silah və texnikalar nümayiş olundu. Paradda habelə Türkiyə, Pakistan, Belarus, Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan, İran, İsrail, Qazaxıstan, Özbəkistan, Rusiya, Səudiyyə Ərəbistanı və Ukraynadan olan 100-dək nümayəndə iştirak edib.

**Ali Baş Komandan İlham Əliyev çıxışında ordumuzun uğurlarından bəhs etməklə yanaşı, işğalçı Ermənistana və onu himayə edənlərə xəbərdarlıq edib. Prezident bildirib ki, Azərbaycan ordusunun döyüş qabiliyyəti ən yüksək səviyyədədir və bunu yaxın tarix göstərir. Ali Baş Komandan deyib:** "İki il bundan əvvəl Ermənistan xalqımıza qarşı növbəti hərbi təxribat törətmişdir, bizim mövqelərimizi atəşə tutmuşdur, mülki əhaliyə qarşı təcavüz etmişdir. Həm hərbçilərimiz, həm mülki vətəndaşlar şəhid olmuşdur. Azərbaycan ordusu işğalçını cəzasız qoymadı, onlara layiqli cavab verdi, onları yerinə oturtdu, uğurlu əks-hücum əməliyyatı keçirərək işğal edilmiş torpaqlarımızın bir hissəsini işğalçılardan azad etdi. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi, iki min hektar ərazi təmizləndi. Uğurlu əks-hücum əməliyyatı nəticəsində minlərlə hektar torpağa bu gün Azərbaycan ordusu nəzarət edir".

**İlham Əliyev bildirib ki, ermənilərin torpaqlarımızda, işğal edilmiş torpaqlarda qazdıqları səngərlərdə bu gün bizim əsgərlərimiz xidmət göstərir:** "Lələtəpədə bizim bayrağımız dalğalanır. Ağdərə dağlarında bizim bayrağımız dalğalanır. Biz strateji yüksəklikləri əldə etmişik və bu, bizə çox böyük üstünlük verir. Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan əsgəri, zabiti, generalı - Azərbaycan ordusu əsl qəhrəmanlıq, peşəkarlıq, rəşadət göstərmişdir. Bir daha göstərmişdir ki, Azərbaycan xalqı bu işğalla barışmayacaq. Bir daha göstərmişdir ki, Ermənistan tərəfindən onların ordusu ilə bağlı uzun illər ərzində yayılan nağıllar mif idi. Biz bu mifi darmadağın etdik. Biz onların illər boyu yaratdıqları dırnaqarası möhkəm müdafiə xəttini bir neçə gün ərzində yardıq, məhv etdik. Aprel döyüşləri tariximizin şanlı səhifəsidir".

**Prezident ardınca deyib ki, ötən ay Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən həyata keçirilmiş əməliyyat nəticəsində 90-cı illərin əvvəllərində zəbt edilmiş 11 min hektar ərazi düşməndən azad edildi. Azərbaycan tərəfindən böyük mühəndislik, kəşfiyyat işləri aparıldı:** "Naxçıvan əməliyyatı göstərdi ki, Azərbaycan ordusu güclü ordudur və istənilən vəzifəni icra edə bilərik, icra da edirik. 2016-cı il aprel döyüşlərində, 2018-ci ilin Naxçıvan əməliyyatında işğalçılardan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırıldı. Bunun çox böyük mənəvi əhəmiyyəti var".

Maraqlısı budur ki, Ermənistan hələlik ordumuzun möhtəşəm paradına reaksiya vermir. Düzdür, bəzi dairələrdə demaqogiyanın şahidi oluruq. Məsələn, Ermənistan parlamentinin vitse-spikeri Arpin Ovannisyan ABŞ helikopterlərinin Azərbaycan ordusuna necə verildiyi barədə sorğu ilə Konqresə sorğu yollayıb. Erməni deputat Bakıdakı hərbi paradda "Bell-412" helikopterlərinin nümayiş olunacağı xəbərindən sonra həyəcanlanıb.

Azərbaycanın yeni hərbi avadanlıqlar alması düşmən tərəfi ciddi şəkildə narahat edir. "Rusiyanın hərbi-texniki əməkdaşlığına dair açıqlamalarından aydın olur ki, Ermənistan tezliklə "Su-30" SM döyüş təyyarələri, Azərbaycan "Su-35" və Türkiyə "Su-57" təyyarələri alacaq". Ordu.az erməni KİV-lərinə istinadən xəbər verir ki, bunu erməni hərbi ekspert Hrant Melik-Şahnazaryan bildirib.

Şahnazaryan "Su-30" SM, "Su-35" qırıcılarının olduqca güclü və təsirli olduğunu, istənilən döyüş əməliyyatında vəziyyətin dəyişə biləcəyinə qadir olduğunu qeyd edib. "Təbii ki, təyyarələr qırıcıları hərbi parada görə əldə etmirlər. Əlbəttə ki, müharibəyə hazırlaşırlar. Bununla yanaşı, münaqişə tərəfləri hərbi imkanlarını gücləndirməkdə davam edir, gələcəkdə bəzi problemləri həll etmək üçün müasir silah əldə etmək məqsədilə əllərindən gələni etməyə çalışırlar", - deyə Şahnazaryan qeyd edib.



İrəvan isə Azərbaycan ordusunun Naxçıvan əməliyyatını təkzib etmək üçün uğursuz cəhdlər göstərir. "Naxçıvan istiqamətində ordumuzun həyata keçirdiyi əks-həmlə əməliyyatı qarşı tərəfi həqiqi mənada naxuta salıb. Ermənistan mətbuatının "Günnüt əməliyyatını" növbəti dəfə müzakirəyə çıxarması bunu bir daha sübut edir". Bir qrup erməni media nümayəndələrinin guya heç bir şey olmamış kimi cəbhənin həmin istiqamətinə səfər etməsi barədə məlumatı şərh edərkən Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər. "Azərbaycan əsgərinin vurduğu tərs şillədən özünə gələ bilməyən və məğlubiyyəti həzm etmək iqtidarında olmayan Ermənistanın hərbi-siyasi rəhbərliyi xalqının qorxusundan dolayı yollar və müxtəlif uydurmalar hesabına özünə bəraət qazanmağa çalışır. Azərbaycan tərəfinin azad edilmiş ərazilərdən nümayiş etdirdiyi video-foto çəkilişlərə heç bir tutarlı faktla cavab verə bilməyən Ermənistanın məkanı bəlli olmayan, hansısa dağlıq ərazilərə "press-tur"lar təşkil etməkdən başqa bir çıxış yolu qalmır. Azərbaycan əsgərinin Naxçıvanda azad etdiyi ərazilərə mülki əhalinin qayıtması, bu yerlərdə həyatın yenidən bərpa edilməsi artıq müzakirə olunmayan danılmaz faktdır", - deyə Müdafiə Nazirliyindən bildiriblər.

**Hərbi psixoloq Azad İsazadə modern.az saytına deyib ki, Ermənistan Bakıdakı hərbi parada görə şokdadır:** "Öncə qeyd etmək lazımdır ki, təkcə düşmən tərəfi üçün yox, eləcə də öz xalqımız üçün dünənki hərbi parad bir az qeyri-adi oldu. Biz ən yaxşı silah və hərbi texnikanı göstərdik, amma arxa planda bəlkə də 10 qat daha yaxşı silahlar var. Digər tərəfdən, Azərbaycan tərəfi hər bir texnikanı müəyyən zamanlarda nümayiş etdirmişdi. İstər təlim vaxtı, istər Belarusdan "Polonez"lər gətirilərkən, istər müdafiə nazirimiz hansısa hərbi hissəsinin açılışında iştirak edəndə... Hər bir texnika, silah-sursata görə ermənilər bir az reaksiya verib, hay-küy yaradıblar. Buna baxmayaraq, biz yenə də bütün bu texnikaları birləşdirib dünənki paradda nümayiş etdirdik".

**Hərbi ekspert qeyd edib ki, yaxın vaxtlarda ermənilərin reaksiyası müşahidə edilə bilər:** "Yaxşı bir söz var: pişiyin əli ətə çatmayanda deyir iylənib. Adətən düşmən tərəfdən bu cür reaksiyaların şahidi olmuşuq. Lakin bu dəfə heç nə görmədik. Aydındır ki, ermənilər öz içlərində yanır. Yəqin ki, bir azdan mətbuatda da olmasa, hansısa reaksiyalarını görəcəyik. Beynəlxalq təşkilatlara, ABŞ Konqresinə məktublar gedəcək, şikayətlər ediləcək. Onların susmağı bizə təsir etmir. Ümumiyyətlə, hərbi paradların məqsədi elə hərbi psixoloji təsirdir. Bu yolla əks tərəfə nəyə qadir olduğumuzu nümayiş etdiririk. Bəzən hərbi psixoloji təsirin nəticəsi elə susmaq reaksiyası olur".

**"İyunun 26-da Azərbaycanın baş meydanı olan Azadlıq meydanında keçirilən hərbi parad bundan əvvəl keçirilmiş 4 paraddan hər mənada fərqli və daha möhtəşəm idi". Bu fikirləri isə hərbi ekspert, ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərova məxsusdur. "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Azərbaycan siyasi-hərbi rəhbərliyi bütün dünyaya açıq və sərt şəkildə qətiyyətli mövqeyini bir daha çatdırdı:** "Diqqətimi cəlb edən maraqlı məqamlardan biri də gün ərzində Moskvadan, Ukraynadan, İrandan və digər ölkələrdən həm sosial media üzərindən, həm də telefon vasitəsilə hərbi paradımızla bağlı çoxsaylı suallar və nüanslar idi. İnanıram ki, bu 100 illiyə həsr olunmuş hərbi parad mütləq Qarabağla bağlı danışıqlara güclü təsir edəcək. Ən azından düşmən də, bu vaxta kimi ona gizli və açıq havadarlıq edən Rusiya və Amerika da gördü ki, bu qədər gücün və qüvvənin qarşısında Ermənistan adlı dövlət əgər doğru və düzgün yola qayıdıb Qarabağdakı sərsəm ideyalarından əl çəkməyəcəksə, Azərbaycanı durdurmaq mümkün olmayacaq. 2016-cı ilin aprel hadisələri zamanı biz şahidi olduq ki, 20 ildən çoxdur boşboğazlıqla məşğul olan ATƏT-in bivec Minsk Qrupunun Qarabağla bağlı dünyaya çatdırmaq istədiyi fikirlərini məhz Azərbaycan əsgəri öz gücü və qətiyyəti hesabına səs salaraq nail oldu. Bu dəfə də hesab edirəm ki, paradda nümayiş olunan ən müasir silah və sursat yəqin ki, Putin-Tramp və Makron triosunu bir qədər düşünməyə və addımlar atmağa məcbur edəcək".

**Ü.Cəfərov Türkiyənin hərbi paradda iştirak etməklə işğalçıya xəbərdarlıqlar etməsinə xüsusi diqqət çəkdi:** "Qardaş Türkiyə Respublikasının Silahlı Qüvvələrinin həm piyada, həm də Hərbi Hava Qüvvələrinin şahinlərinin möhtəşəm uçuşları və addımları bir çox bədxahlara bir növ mesaj idi. Yeni Azərbaycan bundan əvvəl də öz qan və din qardaşları olan Türkiyə Cümhuriyyətinə arxa-dayaq olduğu kimi, qardaş ölkənin əsgər və zabitləri də bizim yanımızda olublar və yanımızdadırlar. Yəqin ki, yaxın bir neçə aya biz paradın əks-sədasını hiss edəcəyik".

Beləcə, dünya Azərbaycanın hərbi gücünə bir daha şahidlik etdi. İndi qalır işğalçının nazı ilə oynayan qüvvələrin düzgün nəticə çıxarması. Əks təqdirdə, Azərbaycan bu qədər hərbi arsenalını, sadəcə, paradda nümayiş etdirmək üçün zənginləşdirmədiyinin sübut etməli olacaq. Millət və dövlət olaraq hədəfimiz Qarabağdır! Belə görünür ki, Bakıdakı hərbi parada Türkiyə hərbçilərinin də qatılması İrəvanı şoka salıb. 100 ilin əvvəlində Türkiyə və Azərbaycan ordusu torpaqlarımızın xilası üçün birgə silaha sarılmışdı. Tarix təkrarlana bilər...

YENİ MÜSAVAT
N 137 (7026) 28 iyun 2018



# Qırılıya səyahət

Zamin HACI
zaminhaci@gmail.com

**Sviftin "Qulliverin səyahəti" əsərində qəhrəman bir dəfə atların hökmranlıq elədiyi yerə gedib çıxır. Orda atlara insanların həyatından, İngiltərədəki işlərdən danışır. Atlar müharibə zamanı çoxlu insanın ölməsinə inanmaq istəmirlər. Onlar savaşın hansı məntiqə söykəndiyini də anlamırlar.**

Bu mənim yadıma dünən oxuduğum bir xəbərə görə düşdü: Azərbaycanın xarici işlər nazirinin müavini Ermənistan paytaxtı İrəvanda Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QİƏT) iclasında iştirak edirdi. Doğrudan da absurd dünyada yaşayırıq. Millətlər bir yanda ən son silahları alıb bir-birinin qanına susayırlar, yarım qarış torpaqdan ötrü neçə insan ölür, o biri yanda isə eyni millətlər *(biz və ermənilərdən başqa savaş durumunda olan Ukrayna və Rusiya da bu QİƏT-in üzvüdür, həmçinin, Gürcüstan torpaqlarında iki oyuncaq dövlət qayıran ruslar burada gürcülərlə eyni masada əyləşir)* iqtisadi əməkdaşlıqdan dəm vururlar. Əlbəttə, mən savaşın əleyhinəyəm, istənilən formada danışıq və əməkdaşlığa tərəfdaram, ancaq gəlin etiraf edək ki, bugünkü durumda Azərbaycan XİN müavininin Ermənistan paytaxtında olması, ümumiyyətlə, bu iki dövlətin hansısa formatda iqtisadi əməkdaşlığından danışmaq tragikomediyadır, farsdır, nə bilim, absurd teatrıdır.

Fars demişkən, təzəlikcə İran hansısa ölkə ilə futbol oynayırdı. Deyəsən, Portuqaliya idi. Bircə o yadımdadır ki, hər iki komandanın uduzmasını arzulayırdım. Ümumiyyətlə, bu da bir dərddir: qonşuluqda bir azarkeşlik ediləsi dövlət də qalmayıbdır. Rusiya, İran, Ermənistan, Türkmənistan... Hamısının uduzması mənə xoşdur. Ta mövzu açılıb, mən heç bizim idmançıların da hansısa qələbəsinə ürəkdən sevinmirəm, çünki bu qələbənin necə ucuz siyasi reklam, təbliğat vasitəsinə çevriləcəyini öncədən bilirəm.

Uzun sözün qısası, İranın udmasını istəmirdim, üstəlik, oyun əcaib bir formada keçirdi. Bu ildən videotəkrar sistemi işə düşüb, hakim nəyisə dəqiq görməyəndə, şübhəsi qalanda oyunu dayandırıb videoda epizoda təkrar baxır. Həmin oyunda isə bu texniki yeniliyin lap şiti çıxmışdı. Kimin ürəyi istəsə yalandan ora-burasını tutub meydana uzanırdı, hakim isə qaçıb televizorda epizodu izləyir, penaltidən-zaddan (aşağısı) verirdi. Futbol oyunu az qala Youtube portalında veriliş qayıran bloqçuların məhsuluna dönmüşdü. Məncə bu gedişlə futbol oyunu yaxın illərdə belə "yeniliklərə" şahid olacaqdır: kimin laykı çox gəlsə ona penalti vurmaq haqqı veriləcək, videosu pis şərhlər alan komandaya qırmızı vərəqə göstəriləcək və sairə. FİFA oyunun zibilini tam çıxarıbdır. Hər texniki yenilik, o cümlədən hər doğru üsul heç də həmişə fayda vermir - biz bu həqiqətin bir daha şahidi oluruq. Oyunun tempi də ölüb. Səhv qərarlar oyuna bundan az mənfi təsir edirdi.

Hərçənd dünyada dəyişilməz qalan ərazilər də var. Bu həftə hansısa saytda Ağstafanın Qırılı kəndində acından ölmək təhlükəsi ilə üzbəüz, olduqca kasıb, üzvləri vərəm xəstəliyindən əziyyət çəkən ailə haqda reportaj oxudum. Kəndin adı dərhal tanış gəldi, çünki mən bu kənddə lap çoxdan - 2003-cü ildə olmuşam. Kənd elə o vaxtlar da çox kasıb ərazi idi. Bilmirəm niyə belə ad qoyublar, kəndin adı da sanki eşidənlərə "qırılırıq" mesajını verir. Ancaq 2003-də bu kənddə bir ümid də var idi, çünki Bakı-Tiflis-Ceyhan neft kəməri Qırılının torpaqlarından da keçəsiydi. Elə jurnalist səfərimin mənası da bu kəmərin gözlənilən çəkilişi zamanı torpağından məhrum olacaq kəndlilərə kompensasiyanın az verilməsini araşdırmaq üçün idi. Bəlkə indi vərəmləyən ailə də o zaman şikayətçi olmuşdu, yadımda qalmayıb. Çox sular axıb, necə deyərlər. Həm də çox neft axıb. 2005-ci ildə BTC işə düşərək 13 ildir Qırılının böyründən dünya bazarına neft daşıyır. Qırılı sakinləri isə o vaxt necə qırılırdılarsa, indi də elə qırılırlar. Dəyişən bir şey yoxdur.

Bəlkə biz də hakimə etiraz edək və 2003-cü ilin epizodlarına təkrar baxaq? Oyunun marağı itsə də...




# Putinin emissarının Əliyevə gətirdiyi mühüm mesaj - İrəvan niyə təlaşlanıb?

## Nikol Paşinyanın Qarabağ xofu - İrəvan Azərbaycan prezidentinin qarşısına kimi çıxaracağını bilmir; baş nazir prezidentin dalında gizlənir - iki səbəb; **erməni nəşri:** "Parad göstərdi ki, Bakı Rusiya, ABŞ və İsrailin dəstəyini alıb..."

**İrəvanda Azərbaycan prezidenti ilə Dağlıq Qarabağ mövzusunda ən yüksək səviyyəli görüşə kimi - baş naziri, yoxsa prezidenti çıxarmaqla bağlı hələ də qəti qərarlılıq yoxdur. Yeni siyasi sistemə görə, bu şəxs baş nazir Nikol Paşinyan olmalıdır. Amma Paşinyanın daxili məsələlərə və Qarabağ xaric, bəzi xarici siyasət məsələlərinə daha çox köklənməsi müşahidə edilir.**

Müşahidə edilən həm də onun Qarabağ danışıqlarını aparmaq üçün yetərli siyasi baqaja, informasiya və səriştəyə malik olmamasıdır. Bu üzdən, o, hələ də sülh prosesinə yalnız ziyan viran populist, təhlükəli bəyanatlar verməklə məşğuldur. Belə qənaət var ki, məhz bu yolla o, Qarabağ məsələsində özünün qeyri-kompetentliyini kompensasiya eləməyə çalışır və faktiki Azərbaycan prezidenti İlham Əliyevlə birbaşa təmasdan çəkinir, bunu arzulamır.

*****

"Yeni Müsavat" xatırladır ki, az öncə Ermənistan baş nazirinin xarici siyasət üzrə müşaviri Arsen Xaratyan keçmiş prezident Serj Sərkisyanın Qarabağ münaqişəsinin nizamlanmasına dair danışıqlara cəlb oluna biləcəyini istisna etməmişdi. "Gün gələcək və ola bilsin Serj Səkisyan Qarabağ məsələsi üzrə xüsusi səlahiyyətli nümayəndə olacaq? Kim bilir? Mən onu deyərəm ki, Sərkisyanın dövlət maraqları ilə bağlı olan hansısa məsələdə iştirakı istisna deyil. Əgər birdən ictimai konsensus yaransa və görsək ki, bu adam hansısa məsələdə gərəklidir", - deyə o bildirmişdi.

**Xaratyan əlavə eləmişdi ki, Ermənistanda Qarabağa dair danışıqlar prosesini tam bilən adam çox azdır:** "Keçmiş diplomatlar yoxdur". O, Sərkisyanın Paşinyanı Qarabağa dair hansısa görüşdə müşayiət edə biləcəyi haqda isə belə demişdi: "Heç kim bilmir, bir ay sonra, bir il, beş il sonra nə olacaq". Xaratyan onu da bildirmişdi ki, hazırda Nikol Paşinyanın Azərbaycan prezidenti İlham Əliyevlə görüşü planlaşdırılmır.

**"Qraparak" qəzeti isə dünənki məqaləsində Ermənistan tərəfdən prezident İlham Əliyevlə məhz prezident Armen Sərkisyanın görüşə biləcəyini istisna etməyib. "Yeni Müsavat"ın məlumatına görə, bu günlər Ermənistan prezidentinin böyük beynəlxalq turne həyata keçirdiyini xatırladan nəşr yazıb.** "Armen Sərkisyan öz ad gününü doğma Britaniyasında keçirib - harada ki, onun şahzadə ailəsi ilə görüşü də planlaşdırılırdı (Sərkisyanın Britaniya vətəndaşlığı da daşıdığı bildirilir - red.) Sonra Fransada olacaq, ardınca ABŞ-a yollanacaq. Onun yaxın ətrafının qəzetə söylədiyinə görə, əsas hədəf - Ermənistana sərmayə cəlb eləməkdir. Onun Rusiyaya da getməsi nəzərdə tutulur. Bunu da istisna eləmək olmaz ki, İlham Əliyev yəqin ki, Rusiyaya işarə edib ki, Armen Sərkisyanla danışıqlar aparmağa hazırdır. Həmsədr ölkələr də yəqin ki, buna etiraz etməyəcək - bizim mənbəmiz deyib" - nəşr qeyd edib.

*****

Buradaca yada salaq ki, bir qədər öncə erməni mənbələr Armen Sərkisyanın İlham Əliyevi tanıdığını yazmışdı. O vaxt Sərkisyan "Ermənistandakı hadisələrdən Bakı öz xeyrinə istifadə edə bilərmi" sualına belə cavab vermişdi: "Bunu heç cür şərh edə bilmərəm. Çünki İlham Əliyevi şəxsən tanıyıram. Kifayət qədər yaxşı. Lakin vəziyyət və siyasət elədir ki, an çox həssasdır. Yəni Dağlıq Qarabağda gərginliyin artması ehtimalını heç bir halda istisna etmək olmaz. Bu isə o anlama gəlir ki, ilk iş günündən etibarın yeni hökumət sərhədlərin təhlükəsizliyi ilə ciddi məşğul olmalıdır".

Yəni əslində o, Azərbaycan dövlət başçısının xarakterinə, güzəştsiz mövqe tutduğuna əmin və bələd olan adam kimi, Bakının yeni lokal hərbi əməliyyatlara gedə biləcəyindən açıq narahatlıq ifadə eləmişdi. Başqa yandan, əslində indi Paşinyan Ermənistan hökumət başçısı kimi tam legitim şəxs də deyil. Tam legitimlik yalnız yeni parlament formalaşandan sonra olacaq. Bu isə növbədənkənar seçkilərdın sonra mümkündür. Bu da Paşinyanı Əliyevlə görüşdən çəkindirən ikinci mühüm səbəb.

Məsələ həmçinin ondadır ki, yeni parlament başqa, daha səriştəli bir şəxsi də baş nazir seçə, yaxud Paşinyan özü könüllü şəkildə kənara da çəkilə bilər. Çünki o zaman üçün o, islahatları və xalqa verdiyi vədləri tutmağın nə qədər qəliz olduğuna əminlik hasil edəcək. Qarabağ məsələsindəki mürəkkəb durumun doğurduğu imperativ də öz yerində. Belədə Paşinyan niyə də "burnu girməyən yerə başını soxub" özünü yandırsın ki?

*****

**Bu arada Rusiya Dövlət Dumasının spikeri Vyaçeslav Volodinin Bakıya son səfəri çərçivəsində verdiyi açıqlama İrəvanda Qarabağla bağlı narahatlığı artırıb. "Yeni Müsavat"ın xəbər verir ki, bununla bağlı qərbyönlü armeionarepiort.com portalı sanki SOS siqnalı verirmiş kimi yazıb:** "Spiker Yyaçeslav Volodin Bakıya baş çəkib və burada mühüm bəyanatlar verib. Onun bəyanatlarına isə qulaq verməyə dəyər. Çünki bu adamın uzun müddət Rusiyanın baş naziri təyin ediləcəyi deyilirdi. Onun baş nazir təyinatı alınmadı. Bununla belə, Volodin Kremldə olduqca ciddi fiqur olaraq qalır. Odur ki, onun istənilən sözünü, nitqini Putinin hansısa mesajı kimi qəbul eləmək lazımdır".

**Daha sonra nəşr spikerin Bakıda Qarabağ məsələsi ilə bağlı verdiyi bəyanatı xatırladıb. Volodin azərbaycanlı həmkarı Oqtay Əsədovla görüşdə demişdi:** "Bilirsiniz ki, Rusiya konfliktin dinc həllinin tərəfdarı kimi çıxış edir. Kimlər ki, əlaqələrin kəskinləşməsinin tərəfdarıdır, kim ki, xalqın dinc yaşamaq istəyini və sözünü eşitmir, onlar gərginlik yolu ilə gedirlər. Biz hər şey etməliyik ki, bunun qarşısını alaq. Azərbaycan Dağlıq Qarabağ məsələsində həmişə doğru və konstruktiv mövqe tutub".

**Məqalədə bu açıqlama belə şərh edilib:** "Rusiyanın "RİA-Novosti"nin yaydığı bu xəbər təkzib olunmadı. Demək, Volodin həqiqətən belə şey söyləyib. Aydın məsələdir ki, o, bunu öz təşəbbüsü ilə eləməyib. Kremldə həmişə, əsrlər boyu bu səviyyədə təşəbbüskarlıq cəzalandırılır. Demək ki, Volodini Bakiya elə ona görə göndəriblər ki, belə bir bəyanat versin. Bütün bunların fonunda ən təşviş doğuranı isə odur ki, Bakı, deyəsən, təkcə Rusiyanın yox, ABŞ və İsrailin də dəstəyini alıb. Hər necə olmasa, Bakıda keçirilən son hərbi parad da bu düşüncəni gücləndirir - hansı paradda ki, qədərindən çox İsrail istehsallı silahlar var idi..."

Əlavə edək ki, V.Volodin gerçəkdən də Putinin yaxın adamlarından və Kreml "mətbəxi"nə bələd olan ciddi simalardan biridir. Odur ki, Putinin emissarının Bakı mesajından düşmən tərəfinin təlaşlanmasına əsas var...

❑ **Siyasət şöbəsi, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 137 (7026) 28 iyun 2018

**ABŞ dövlət katibinin Cənubi və Mərkəzi Asiya məsələləri üzrə köməkçisinin birinci müavini Elis Uels dünən Azərbaycana gəlib. ABŞ Dövlət Departamentinin mətbuat xidmətinin xəbərinə görə, Elis Uels iyunun 28-də Bakıda keçiriləcək Əfqanıstan üzrə Beynəlxalq Təmas Qrupunun toplantısında iştirak edəcək. Prezident İlham Əliyev iyunun 27-də ABŞ Dövlət Departamentinin Cənubi və Mərkəzi Asiya Məsələləri üzrə Bürosunun baş rəsmisi, xanım Elis Uelsi qəbul edib.**



# ABŞ emissarı Bakıda - Uelsin gətirdiyi ismarışlar...

## Siyasi ekspert: "Dövlət Departamenti təmsilçisinin Azərbaycan rəhbərliyi ilə görüşlərində müzakirə edilməli kifayət qədər məsələlər var"

Bakıya səfər çərçivəsində ABŞ dövlət katibinin Cənubi və Mərkəzi Asiya məsələləri üzrə köməkçisinin birinci müavini Azərbaycan rəsmiləri ilə də bir sıra görüşlər keçirəcək.

Xatırladaq ki, sabah Bakıda keçiriləcək toplantıda Beynəlxalq Təmas Qrupunda iştirak edən ölkələr və beynəlxalq təşkilatların təqribən 90-a yaxın nümayəndəsi iştirak edəcək. Tədbirdə Əfqanıstanın dövlət və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı gözlənilir.

Bəs ABŞ-dan son zamanlar Azərbaycana bu tipli dövlət rəsmilərinin səfərlərinin çoxalması münasibətlərin normallaşmasına, ara-sıra özünü göstərən fikir ayrılıqlarının aradan qalxmasına təkan verə bilərmi?

**Siyasi ekspert Yeganə Hacıyeva** "Yeni Müsavat"a şərhində bildirdi ki, uzun illərdir Azərbaycan sülhpərvər və humanist bir dövlət olaraq beynəlxalq humanitar, siyasi, iqtisadi, hərbi və təhlükəsizlik təşkilatlarının nümayəndələrinin iştirak etdiyi tədbirlərə ev sahibliyi etməklə dünyada sabitlik və inkişafın təmin edilməsinə öz töhfəsini verir. Bu həftə isə rəsmi Bakı bu tip tədbirlərdən biri kimi Əfqanıstan üzrə Beynəlxalq Təmas Qrupunun görüşünə ev sahibliyi edəcək. ABŞ dövlət katibinin Cənubi və Mərkəzi Asiya məsələləri üzrə köməkçisinin birinci müavini xanım Elis Uelsin Azərbaycan rəsmiləri ilə bir sıra görüşlər keçirəcəyi gözlənilir: "ABŞ dövlət katibinin Cənubi və Mərkəzi Asiya məsələləri üzrə köməkçisinin birinci müavini xanım Elis Uelsin Azərbaycan rəsmiləri ilə görüşləri və müzakirə olunacaq məsələləri şərh etməmişdən öncə Əfqanıstan üzrə Beynəlxalq Təmas Qrupunun Bakı görüşü və bu görüşün müzakirə mövzusu olan məsələlər haqqında, ABŞ-ın bu istiqamətdə rolu barədə danışmaq istəyirəm.

Mərkəzi Asiya Rusiya və Çinin əhatəsindəki region olaraq Vaşinqtonun uzun müddətli xarici siyasət maraqları üçün xüsusi strateji əhəmiyyət kəsb edir.

ABŞ Mərkəzi Asiya regionunun sabitliyi, rifahı, təhlükəsizliyinin gücləndirilməsi, siyasi və iqtisadi modernləşməsi Qərbin təhlükəsizliyinə xidmət edən əsas faktor kimi son dərəcə maraqlıdır. Bu məqsədlərə nail olmaq üçün regionların hökumətləri və xalqları ilə sıx əməkdaşlıq etməyə can atır.

Məsələ ondadır ki, Əfqanıstan üzrə Beynəlxalq Təmas Qrupunun Bakı görüşü Əfqanıstanda parlament seçkilərinin keçirilməsi və Əfqan parlamentinə gələcək seçkilər üçün hazırlıq öncəsi keçirilir. Məsələ ondadır ki, uzun illərdir Əfqanıstandakı müharibə ABŞ-ın iştirak etdiyi ən uzun hərbi münaqişədir. Əfqanıstanda siyasi hakimiyyətin bütün strukturunun əsas təməli beynəlxalq koalisiyadan və əlbəttə, ABŞ-dan maliyyələşmədir və ABŞ bu ölkədə maraqlı tərəf kimi uzun illərdir geniş miqyaslı maliyyələşdirmə siyasəti ilə mürəkkəb sistemdə tək hakim rolunu oynayır. ABŞ-dan bu asılılıq həmçinin bu sistemi həssas edən bir faktorudur. Əfqanıstanda bu seçki ABŞ-ın Tramp administrasiyasının müşayiət etdiyi ilk seçkidir. Əfqanıstan üzrə Beynəlxalq Təmas Qrupunun Bakı görüşündə Tramp administrasiyasının gəlişi ilə ABŞ-ın dəyişən Əfqanstan siyasətinin fonunda dövlət katibinin Cənubi və Mərkəzi Asiya məsələləri üzrə köməkçisinin birinci müavini xanım Elis Uelsin xüsusi missiyası vardır.

Həmçinin son zamanlar ABŞ-ın Rusiya və İran arasında qlobal səviyyədə qarşıdurması, sanksiyaların qəbul edilməsi, hər iki tərəfin günbəgün sərtləşən ritorikası Orta Asiyada vəziyyətə təsir göstərir və Əfqanıstan ətrafındakı geosiyasi vəziyyət köklü dəyişir. Ümumiyyətlə, ABŞ , İran, Pakistan və Rusiyaya olan münasibətlərin pisləşməsi və Əfqanıstanın indiki puştun başçısı ilə milli azlıqların, xüsusən də tacik, özbək və türkmən seçicisi arasında ziddiyyətlərin artması ilə, Əfqanıstanda mövcud daxili siyasi vəziyyətin sabitliyini şübhə altına alır. Ancaq əminliklə bunu demək olar ki, yaxın gələcəkdə planlaşdırılan parlament və prezident seçkiləri Əfqanıstandakı əsas xarici qüvvələr arasında formal da olsa bir razılaşmaya gəlinəcəyini şərtləndirir və Əfqanıstan üzrə Beynəlxalq Təmas Qrupunun Bakı görüşü bu istiqamətdə strateji mövzuların müzakirə ediləcəyi mühüm görüş kimi yadda qalacaq".

**Ekspertin fikrincə, ABŞ rəsmisinin Bakı səfəri Azərbaycan-ABŞ münasibətlərinin də müzakirəsi üçün imkan yaradacaq:** "Düzdür, hazırda ABŞ-la münasibətlərdə, regional və qlobal yanaşmada iki dövlət arasında əlaqələrdə narahatedici fikir ayrılığı mövcud deyil. Amma şübhəsiz ki, müzakirə edilməsi məsələlər də yox deyil. Cənubi Qafqaz qitələrarası qovşaq, tampon zona və keçid adlandırdığımız strateji coğrafi regiondur. Bu regiona nəzarət edən istənilən qüvvə Asiya, Avropa və Yaxın Şərq arasında balansı qorumuş olur. Cənubi Qafqazın ən strateji ölkəsi isə Azərbaycandır. Regionun nüfuzlu iqtisadi, siyasi mərkəzi kimi Azərbaycan milli maraqlarına xidmət edən balanslı, çoxvektorlu xarici siyasət həyata keçirir. Bu üzdən də regionda maraqlı dünya güclərinin təsir dairəsində saxlamağa çalışdığı, nəzarətini gücləndirmək istədiyi ölkə Azərbaycandır. Azərbaycan Cənubi Qafqazın digər üç ölkəsindən fərqli olaraq, müstəqil, güclər arasında balanslı siyasətini qoruyaraq öz maraqlarına uyğun siyasət yürüdən bir ölkədir və biz həm Rusiya, həm ABŞ-la öz maraqlarımızın ətrafında qarşılıqlı faydalılıq əsasında əməkdaşlıq istəyirik.

Azərbaycan ABŞ-ın Avropa ilə Asiya və Yaxın Şərq region arasında mühüm nəqliyyat dəhlizi olan, Rusiya və İranın sərhədlərində yerləşən, ABŞ-ın digər strateji təhlükəsizlik tərəfdaşları- Türkiyə və İsraillə xüsusi münasibətləri olan qlobal energetika və təhlükəsizlik layihələrində strateji tərəfdaşıdır. Bu mənada sözsüz ki, Dövlət Departamentinin rəsmisinin Azərbaycan rəhbərliyi ilə görüşlərində müzakirə edilməli məsələlər kifayət qədər olacaq. ABŞ iqtisadi, diplomatik və təhlükəsizlik sferalarındakı mövcud münasibətləri inkişaf etdirməkdə maraqlı görünür. Bu münasibətlərin inkişafı ABŞ-ın Cənubi Qafqaz regionuna təsirinin artmasına xidmət edən bir siyasətdir.

Azərbaycanla bağlı Amerika Birləşmiş Ştatlarının iqtisadi, diplomatik və təhlükəsizlik sferalarında mövcud münasibətləri inkişaf etdirməsi ABŞ-ın Cənubi Qafqaz regionuna təsirinin güclənməsinə xidmət edəcək".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Əfqanıstan-"Taliban" problemi Bakıda çözülə bilər-mühüm gəlişmələr

## Ekspert: "Azərbaycan əhəmiyyətli görüşlər üçün etibarlı məkan kimi seçilib"

**İyunun 28-də paytaxtımızda Əfqanıstan üzrə beynəlxalq əlaqələndirmə qrupunun toplantısı keçiriləcək. NATO və rus generallarının Bakı görüşlərinin ardından növbəti belə bir mühüm toplantının Azərbaycana salınması ölkəmizin dünya miqyasında rolunun nə qədər yüksək olduğunu göstərir.**



Əvvəlcə toplantı çərçivəsində Əfqanıstan rəsmiləri ilə "Taliban" arasında görüşün olacağı barədə xəbərlər yayılsa da, sonradan bu xəbər Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev tərəfindən təkzib edildi. XİN sözçüsü Əfqanıstan prezidenti Əşrəf Gani ilə "Taliban" hərəkatının nümayəndələri arasında görüşün Kabildə keçirilməsinin nəzərdə tutulduğunu qeyd edib.

**Siyasi şərhçi Nəzakət Məmmədova** tədbir üçün Bakının seçilməsinin təsadüf olmadığını qeyd etdi: "Bilirik ki, hazırda Cənubi Qafqazın iki ölkəsi - Ermənistan və Gürcüstan qeyri-sabitlik girdabında çabalayır. Bu ölkələr gah bir, gah da digər geosiyasi güclərin təsiri altına keçir, bu ölkələrdə vaxtaşırı xaos yaranır. Daxili sabitlik zəif, beynəlxalq tədbirlərin təhlükəsizliyinin etibarlı təminatı çox aşağı səviyyədədir. Belə olan halda Azərbaycan onlarla müqayisə olunmaz dərəcədə üstün mövqedədir. Azərbaycan artıq bir sıra beynəlxalq və regional əhəmiyyətli görüşlər üçün etibarlı məkan kimi seçilib. Bakının seçilməsi bu baxımdan təsadüfi deyil. Bakı sabit şəhərdir, Azərbaycan etibarlı tərəfdaşdır. Bundan əvvəl də şəhərimizdə yüzlərlə bu cür tədbirlər olub. Beynəlxalq siyasi platformaların təşkili baxımdan artıq Azərbaycan böyük nüfuz və etimad qazanıb. İndiyədək ölkəmizdə keçirilən beynəlxalq siyasi tədbirlərin, idman və mədəniyyət yarışlarının yüksək səviyyədə təşkili və insidentsiz başa çatması ölkəmizə olan inamı artırıb, onu bu sahədə etibarlı tərəfdaşa çevirib. Azərbaycanın balanslaşdırılmış xarici siyasət yeritməsi, daima dünyada sülh təşəbbüsləri ilə çıxış etməsi və ona dəstək verməsi, qlobal nəqliyyat-kommunikasiya və enerji layihələrinin təşəbbüskarı kimi çıxış etməsi sayəsində dünyada böyük nüfuz qazanması da belə tədbirlər üçün Bakının seçilməsini şərtləndirən əsas amillərdəndir. Əfqanıstana dair indiyədək də ölkəmizdə əhəmiyyətli beynəlxalq tədbirlər keçirilib, yaxud beynəlxalq tədbirlər çərçivəsində Əfqanıstandakı vəziyyət də müzakirə olunub. Əfqanıstan prezidenti, xarici işlər naziri ölkəmizdə rəsmi səfərdə olublar. Ötən ilin dekabr ayında da Bakıda "Asiyanın ürəyi - İstanbul prosesi" adlı 7-ci nazirlər toplantısı Bakıda keçirildi və Əfqanıstana dair mühüm qərarlar qəbul olundu. Əfqanıstan ABŞ-ın və ümumilikdə NATO təşkilatının əsas diqqət mərkəzində olan ölkələrdən biridir. Oraya çatdırılan humanitar yüklər və bu ölkədəki NATO sülhməramlıları üçün lojistik dəstək Azərbaycan üzərindən həyata keçirilir, Azərbaycan tranzit funksiyası daşıyır. Lakin bunlarla bərabər bu ölkədə vəziyyət gərgin olaraq qalır. "Taliban" ard-arda terror aktları həyata keçirir. Üstəlik, Suriyada və İraqda məğlub olan İŞİD-çilərin Əfqanıstanda özlərinə yeni terror ocaqları yaratması barədə məlumatlar var. Əfqanıstan böyük güclərin - ABŞ, Avropa, Rusiya, İran və Çinin maraqlarının toqquşduğu bir ölkədir".

**N.Məmmədova onu bildirdi ki, unikal geosiyasi mövqeyi olan ölkənin problemləri də geniş və çoxşaxəlidir:** "Bu problemlərin Bakıda çözülməsi həm də Azərbaycanın İslam dünyasının problemlərinə diqqət göstərən ölkə olması ilə bağlıdır. Ölkəmizdə İslam həmrəylik oyunları keçirilib, Azərbaycan prezidenti İstanbulda Qüdslə bağlı İslam Əməkdaşlıq Təşkilatının toplantısında beynəlxalq hüquqa əsaslanan konstruktiv mövqe nümayiş etdirib və cəsarətli çıxış edib. Bütün bunlar Əfqanıstan kimi bir müsəlman ölkəsinin problemlərinin həlli üçün Bakını əvəzolunmaz məkana çevirib. Əfqanıstan və Almaniyanın həmsədrlik etdiyi və 90-dan çox nümayəndə heyəti üzvlərinin iştirak edəcəyi kontakt qrupunun növbəti görüşünün Bakıda keçirilməsi Əfqanıstanda sülh prosesinə bir töhfə verəcəkdir".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 137 (7026) 28 iyun 2018



# Pafosun fısı çıxanda...

Samir SARI

**O gün yazı müsabiqəsinin münsiflərinin işindən danışan Çingiz Özgür açıqlamasında belə bir ifadə işlətmişdi ki, məşhur jurnalist Mehman Əliyev qiymətləndirdiyi yazılara nəyə görə aşağı qiymət verdiyini izah etmək üçün bircə söz yazırmış: "Pafos".**

Əlbəttə, təcrübəli jurnalist bir yazının əyər-əskiyini göstərmək üçün çox söz yaza bilərdi, amma biri də bəsdir. Çünki ən başlıcası budur. Bir yazıdakı pafos böyük qüsurdur.

Pafos olan yerdə səmimiyyət yoxdur, reallığın düzgün qiymətləndirilməsi yoxdur, gözboyama var, tovlama var, həqiqət kiçikdir, yalan böyükdür və s.

Ona görə də harada pafoslu (öz dilimizdə desək, bəlağətli) çıxış eşidirəm, fikirləşirəm ki, deyəsən, başımızı aldatmaq istəyirlər.

Əlbəttə, bəzən pafoslu danışaraq düşməni qorxutmaq olur, amma gərək bunun da dozasını çox eləməyəsən və düşmən bu danışığın teyxa pafos olmasını bilməsin. Yoxsa inanmayacaq, qorxmayacaq. Məsələn, 2016-cı ilə qədər generallarımız pafoslu-pafoslu danışanda ermənilər qorxmurdular, hətta lağlağı edirdilər, amma apreldə dronumuz Sünikdən Qarabağa yenidən döyüşməyə gələn veteranların avtobusunu vuranda məcburən qorxmalı oldular. Çünki bu dəfə pafos az, əməl böyük olmuşdu.

Məndən olsa, biz heç vaxt bu xüsusda çox danışmarıq, "vuraram, vuraram" deməriк, amma günlərin birində "komandir, vur" deyən oğlanın komandiri kimi qəfildən vurarıq. Bax, onda düşmən real şəkildə çox qorxar. Hətta artıq biz danışmayanda, təhdid etməyəndə, susanda da qorxar, fikirləşər ki, ara, bu dəli musurman yenə susur, nəsə bir xatası var.

Bu üzdən uzun illər "vurub-yıxmaq" üzrə ixtisaslaşmış, əvvəllər rinq adamı olmuş, hazırda qırmızı kürsü adamı olan deputat Ağacan Abıyev gərək ordumuzun gücündən danışanda bir az pafosun dozasını az edəydi.

Məsələn, "paradda təyyarəçilərimiz dünyaya "master-klass" keçdi" kimi sözlərə nə ehtiyac var? NATO-nun pilotları 50 ildir havada təyyarə tüstüsüylə şüar yazırlar, quşlara uçmaq öyrədirlər.

Heç ordumuzu ABŞ-ın qoşun növləri ilə müqayisə etməyə də zərurət yoxdur: "ABŞ-da olan silahlardan bizdə də var. Bəzən kimlərsə Azərbaycan ordusunu ABŞ ordusundan zəif hesab edir. Ancaq onlar səhv edirlər. Mən onlara tövsiyə edirəm ki, gedib elektron sistemlərlə bağlı mütaliə etsinlər. Çünki ABŞ-da da, Azərbaycanda da elektron sistemlər eynidir... Bizim Rusiyadan aldığımız elə silahlar var ki, bəlkə də ondan ABŞ və digər ölkələrdə yoxdur" və s.

Adama deyərlər, silahınız var, lap yaxşı, sağlığınıza qismət, xeyir işlərdə işlədəsiniz.

Bax, odur, 60 ildən çoxdur ki, İsrailin atom bombası, uzaq mənzilli raketləri-filanı, hər şeyi var, amma bir dəfə də deməyiblər, belə silahımız var, lazım gəlsə atarıq, vurarıq. Hətta onlara "sizin filan silahınız var" deyəndə də boyunlarına almırlar, deyirlər, yoxumuzdur. Xoşbəxtlikdən, onların bu silahı göstərməsi lazım gəlmir, gələndə Lazar gəlir, o da lazerlə-filanla gəlir, amma söhbəti atom səviyyəsinə qədər xırdalamır.

ABŞ-la müqayisəyə gəlincə, ola bilər, ABŞ-ın qüdrəti, eləcə də hərbi gücü haqqında Ağacan müəllimə yanlış məlumat veriblər. O dövlət 50 ştatdan ibarətdir, ən balaca ştatı belə bizdən böyük və güclüdür. Təkcə Kaliforniya ştatı ABŞ-dan ayrılıb ayrıca dövlət olsa, dünyanın 9-cu ən qüdrətli dövləti olar.

ABŞ-ın hərbi büdcəsindəki vəsaiti göstərərkən rəqəmi yuvarlaqlaşdırmaq istəsək və bu məqsədlə quyruqdakı rəqəmləri kənara atsaq, bax, o kənara atılan rəqəm var ha, o bizim Qafqaz regionundakı dövlətlərin hərbi büdcəsindən böyükdür.

Yəni bu cür pafoslu-pafoslu, hər şeyi şişirdə-şişirdə danışaraq, bir-birimizi qaza gətirməsək, yaxşıdır. İnsanlar çaş-baş qalır, deyirlər, bu qədər güclüyüksə, bir ovuc erməninin burnunu niyə ova bilmirik. Di gəl, onlara geopolitik durumdan, beynəlxalq vəziyyətdən, regionda marağı olan dövlətlərin qarşılıqlı münasibətindən danış, görüm. Bircə kəlmə deyirlər ki, a kişi, ABŞ qədər güclü deyilikmi, nədən qorxuruq, basaq gedək də...

Gücümüzə görə danışsaq, yaxşıdır. Danışdığımıza uyğun güclənsək, lap əla olar.

# Aqrar sektorun dərdi: kredit, sığorta...

## Rəşad Həsənov: ""Ən böyük problemlərdən biri də kənd təsərrüfatı istehsalının çox kiçik hissələrə bölünmüş torpaqlarda həyata keçirilməsidir"

**Azərbaycanda kənd təsərrüfatının inkişafı ölkə iqtisadiyyatının əsas prioritetlərindən biri elan edilib. Uzun illərdir bu sahəyə dövlət dəstəyinin müxtəlif formaları tətbiq olunur, kənd təsərrüfatı istehsalçılarının dövlət hesabına texnika, toxum, ting, gübrə və pestisidlərlə təminatı həyata keçirilir. Lakin maraqlıdır ki, həyata keçirilən tədbirlərə rəğmən Azərbaycanda kənd təsərrüfatının yetərli inkişafından danışmaq hələ tezdir.**

Aqrar sektorun hansı başlıca problemləri var ki, onun inkişafına mane olur?

Sualı cavablandıran **iqtisadçı-ekspert Rəşad Həsənovun** "Yeni Müsavat"a dediyinə görə, aqrar sektorda çoxsaylı və ciddi problemlər mövcuddur: "Ən böyük problemlərdən biri kənd təsərrüfatı istehsalının çox kiçik hissələrə bölünmüş torpaqlarda həyata keçirilməsidir. Torpaq islahatı nəticəsində torpaqlar kiçik hissələrə bölünərək pay torpağı şəklində əhaliyə paylanıb. İslahatdan sonrakı uzun illər boyu bu torpaqların çoxu istifadəsiz qaldı. Əmək qabiliyyətli əhalinin çoxu neft gəlirləri hesabına icra edilən infrastruktur layihələrində işləyərək dolanmağa başladı. İnsanlar torpaqdan uzaq düşdülər. İndi-indi əhali torpaqdan təyinatı üzrə istifadə etməyə başlayıb. Lakin bunun üçün əksəriyyətin əlində texnika, ilkin kapital, yüksək məhsuldarlıq əldə etməyə imkan verən bilik və bacarıqlar yoxdur".

**Ekspert bildirir ki, Azərbaycanın kənd təsərrüfatı istehsalçılarının 97 faizi ailə təsərrüfatlarıdır:** "İri təsərrüfatların sayı çox azdır. Kiçik təsərrüfatların maliyyə resurslarına çıxış imkanları isə həddindən artıq aşağıdır. Onlar bankların təklif etdikləri girov, zaminlik və sair şərtləri ödəyə bilmirlər. Beynəlxalq təşkilatlar tərəfindən müəyyən layihələr icra edilirdi, banklar vasitəsilə aqrar istehsalçılar üçün kreditləşmə işləri aparılırdı. Lakin bu məbləğlər sektorda inkişafa nail olmaq üçün yetərli deyil. Son zamanlar bu sahədə müəyyən işlər görülüb: daşınar əmlakın girovluğuna dair qanunvericilik hazırlanıb, Kredit Zəmanət Fondu yaradılıb. Kooperativlərin yaradılması prosesinin sürətləndirilməsi üçün "Kənd təsərrüfatı kooperasiyaları haqqında" qanun qəbul edilib və sair. Lakin bunların hamısı kağız üzərindədir, icra istiqamətində işlər çox ləng gedir. Məsələn, kənd təsərrüfatı kooperasiyalarının yaranması işi demək olar ki, getmir. Bu da ondan irəli gəlir ki, qanunvericilik kooperativlərdə məsuliyyət bölgüsünün icra mexanizmlərini tam əhatə edə bilmir. Ona görə də insanlar öz təsərrüfatlarını birləşdirmək istəmirlər. Kredit Zəmanət Fondu yalnız məbləği 30 min manatdan yuxarı olan kreditlərə zəmanət verilməsini nəzərdə tutur. Bu isə xırda təsərrüfatların zəmanətli kreditlərə çıxışını əngəlləyir, yaxud da təsərrüfatlar məcburən izafi borclanmaya getməlidirlər".

**Kənd təsərrüfatı dünyada ən riskli fəaliyyət sahələrindən biridir, təbii iqlim şəraitindən çox asılıdır. Buna görə də dünyada bu sahənin sığortalanması bilavasitə dövlət yardımı, dövlət təşviqi ilə həyata keçirilir:** "Azərbaycanda hələ ki dövlət bu sahədə istehsalçılara dəstək verməyib. Uzun illərdir kənd təsərrüfatında effektiv sığorta sisteminin yaradılması ilə bağlı müzakirələr gedir, hələ də ortada real nəticə yoxdur.

Dünya ölkələrinin əksəriyyətində arqar sektor yalnız məhsul istehsalı sahəsi olmayıb, həm də məşğulluğun təminatında mühüm yer tutur. Azərbaycanda hər yüz nəfər məşğul əhalinin 36 nəfəri kənd təsərrüfatındadır. Burada standartlar aşağı, risk dərəcəsi yüksək olanda, mənfəət norması aşağı olanda həyat səviyyəsi üzrə orta göstərici kəskin düşür aşağı. Təsəvvür edin ki, əhalinin 36 faizinin məşğul olduğu sektor ölkənin ən aşağı orta aylıq əmək haqqı olan sahəsidir - 220-230 manat. Təhsil və səhiyyədən sonra 3-cü yerdə gəlir. Mənfəət norması da aşağıdır, çünki intensiv təsərrüfatçılıq Azərbaycanda inkişaf edə bilmədi. Bu günə qədər də məhsul istehsalı daha çox ekstensiv yolla - əkin sahələrinin genişləndirilməsi ilə artırılır. İntensiv istehsal üsulları tətbiq olunmur, əhalinin bu sahədə məlumatlandırılması həyata keçirilmir, yaxud çox zəif keçirilir. Bu gün dədə-baba üsulu ilə deyil, elmi nailiyyətlərə əsaslanan texnologiyalar əsasında qurulmalıdır kənd təsərrüfatı istehsalı. Dünyada bu sahə elmi nailiyyətlərin ən çox tətbiq edildiyi sahələrdən biridir. Xarici sahibkar gəlib Azərbaycanda yerli fermerlərdən 3-4 dəfə yüksək məhsuldarlıq əldə edir. Çünki yerli sahibkarların təcrübəsi çox aşağıdır, aqrotexniki qaydaları, dərmanlardan necə istifadə etməyi bilmirlər. Yeri gəlmişkən, qeyd edim ki, bu günədək ölkəyə Kənd Təsərrüfatı Nazirliyinin xəttilə gətirilən dərmanların keyfiyyətindən hamı narazılıq edir. Keyfiyyət çox aşağı olur. Hətta fermerlər deyirlər ki, o dərmanlardan istifadə etdikdən sonra əkinlərdə müxtəlif xəstəliklər yaranır. "Aqrolizinq" başdan-ayağa korrupsiyalaşmış bir qurum idi. Kənd təsərrüfatında daha bir problem bu sahəni tənzimləyən qurumların fəaliyyətinin qeyri-effektivliyidir".



**Ekspert torpaqların şoranlaşmasını da aqrar sahənin əsas problemlərindən hesab edir:** "Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə külli miqdarda vəsait ayrılır, amma ortada real iş yoxdur. Yerlərdə əhali bu qurumdan ciddi narazılıq edir. Kənd təsərrüfatı istehsalçılarının satış bazarlarına çıxışında, məhsul ixracında ciddi problemləri var. Aqrar sektorun inkişafını əngəlləyən bu kimi problemlər aradan qaldırılmayınca ciddi irəliləyiş əldə etmək mümkün olmayacaq".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 137(7026) 28 iyun 2018



# "Son sözü Azərbaycan ordusu deyəcək"

**Politoloq:** "Erməni ekspertlər qorxurlar ki, Rusiyada futbol üzrə dünya çempionatı bitdikdən sonra Azərbaycan ordusu yenidən hücuma keçə bilər"

**"Azərbaycan ordusunun yaradılmasının 100 illiyi ilə bağlı Bakıda 26 iyunda keçirilən hərbi paradın bir neçə səbəbdən vacib əhəmiyyəti var idi. Əvvəla, Azərbaycanda sonuncu dəfə hərbi parad 2013-cü ildə keçirilmişdi. Son 5 ildə Azərbaycan ordusu xeyli inkişaf edib, modern silahlar və hərbi texnikalar alınıb, yerli hərbi istehsal artıb. Azərbaycan hərbçilərinin maddi-texniki bazası möhkəmləndirilib. Azərbaycan ordusu tədricən sovet hərbi məktəbindən uzaqlaşır. Bunu son hərbi parad da göstərdi".**

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** bu fikirləri "Yeni Müsavat"a açıqlamasında bildirdi. Ekspert qeyd etdi ki, əgər 2000-ci illərə qədər Azərbaycan ordusu daha çox Rusiyadan aldığı silah və hərbi texnika ilə təchiz olunmuşdusa, son illərdə vəziyyət dəyişib: "Azərbaycan ordusu NATO standartlarına yaxınlaşır. Bu, özünü həm hərbçilərin geyimində, həm də alınan hərbi texnikada göstərir. Azərbaycanın silah aldığı ölkələrin sayı artıb. Bütün bunların dünyaya, o cümlədən Azərbaycan torpaqlarını işğal edən Ermənistana göstərilməsinə ehtiyac var idi. İkincisi, Azərbaycan prezidenti İlham Əliyev hərbi parad vasitəsilə vacib mesajlar verdi. Bu da əhəmiyyətli idi. Doğrudur, İlham Əliyev Azərbaycan ordusu ilə bağlı mütəmadi olaraq mesajlar verir, işğal faktoruna toxunur. Ancaq hərbi parad elə bir müstəvidir ki, orada verilən mesajlar daha diqqətlə analiz edilir və Azərbaycan ordusunun gələcək hədəfləri müəyyənləşdirilir, Azərbaycan və dünya ictimaiyyətinə çatdırılır. Bu mesajları isə diqqətlə analiz etməyə ehtiyac var".

**E.Şahinoğluna görə, prezident İlham Əliyevin hərbi paradda çıxışı zamanı əsas mesajı bu oldu:** "Müharibə başa çatmayıb, müharibənin yalnız birinci mərhələsi başa çatıb". Bu, nə deməkdir? Ermənistan 1990-cı illərin əvvəllərində Azərbaycan torpaqlarını işğal etdi və yanlış olaraq düşündü ki, məsələni öz xeyrinə həll etdi. Təxminən 10 il atəşkəsə riayət edildi. Azərbaycanda siyasi sabitlik yaradıldı, daha sonra isə yeni enerji layihələri hesabına maliyyə imkanları artdı. Bunun nəticəsində orduya əlavə vəsait ayrıldı və ordu xeyli peşəkarlaşdı. Bunun nəticəsində Azərbaycan ordusunun Ermənistana təzyiqi artdı. Bu, obyektiv prosesdir". **Politoloqun fikrincə, Ermənistanda anlayırlar ki, Azərbaycan ordusu əbədiyyətə qədər işğala dözməyəcək:** "Ancaq bunu anlasalar da, Dağlıq Qarabağ ətrafındakı torpaqları azad etməyə hazır deyillər. Ermənistanda heç bir siyasətçi Azərbaycan ordusunun real gücünü görməyənə qədər geri addım atmayacaq. Deməli, bütün hallarda son sözü Azərbaycan ordusu deyəcək. İlham Əliyevin "Azərbaycan heç vaxt işğalla barışmayacaq və Azərbaycan ərazi bütövlüyünü bərpa edəcək" sözləri də bundan xəbər verir. Azərbaycanda ordu yeganə sahədir ki, xərcləri sürətlə artır. 2003-cü ildən bu günə qədər Azərbaycanın hərbi xərcləri 15 dəfə artıb. Hərbi şəhərciklərin 80 faizi son illər yenidən tikilib və təmir edilib. Növbəti hədəf yaxın 2-3 il ərzində bütün hərbi şəhərciklərimizin təmir olunmasıdır. Hərbçilərin mənzil-məişət məsələləri həll olunur. Orduda 20 il qüsursuz xidmət etmiş hərbçilərə dövlət tərəfindən mənzillər verilir. Digər yenilik odur ki, hərbi hissələrdə 20 mindən çox mülki vətəndaş çalışır. Başqa sözlə, əsgərlər məişət problemlərindən azad edilib".


Elxan Şahinoğlu

**Prezidentin hərbi paraddakı xəbərdarlıqlarına diqqət çəkən politoloq qeyd etdi ki, İlham Əliyev beynəlxalq hüquqa inanmır və bunu zaman da sübut edir:** "Beynəlxalq hüquq Azərbaycanın tərəfində olsa da, Ermənistanın Azərbaycan torpaqlarının işğalına son qoymur, mexanizmlərini işə salmır. Ona görə də prezident də əmin olub ki, torpaqların işğaldan azad olunmasının yeganə alternativi ordunun əməliyyatları ilə bağlıdır. "Düşmənin istənilən strateji obyektini məhv etməyə qadirik. Bütün strateji məntəqələr Azərbaycan ordusu tərəfindən məhv edilə bilər" - deyən İlham Əliyev Azərbaycanın artan gücü qarşısında Ermənistanın zəifləyəcəyi qənaətindədir. Ermənistanı cəzalandırmaqdan başqa yol qalmayıb. Azərbaycan ordusu yeni strategiyadan çıxış edir. Bu, özünü 2016-cı ilin aprel ayında və son Naxçıvan əməliyyatında göstərdi. Kiçikmiqyaslı hərbi əməliyyatlarla strateji yüksəkliklər azad edilir. Bu, Azərbaycan ordusuna mənəvi üstünlük qazandırır. Böyük dövlətlər, o cümlədən Rusiya Azərbaycan ordusunun yeni strategiyasına mane ola bilmir". **E.Şahinoğlu xatırlatdı ki, Rusiya 2016-cı ilin aprelində Azərbaycan ordusunun daha böyük ərazini azad etməsinə imkan vermədi, müharibənin qarşısını aldı:** "Ancaq Rusiya rəsmiləri Azərbaycan ordusunun Naxçıvanda istiqamətində həyata keçirdiyi hərbi əməliyyata heç nə demədilər. Həmin əməliyyatdan sonra İlham Əliyev Moskvada Rusiya prezidenti Vladimir Putinlə görüşdü. Putin Azərbaycanla siyasi münasibətlərin yüksək səviyyədə olduğunu dedi. Başqa sözlə, Azərbaycan ordusunun strateji yüksəklikləri azad etməsinə Rusiya da sərt reaksiya vermir. Odur ki, rəsmi Bakı bu siyasətini getdikcə genişləndirəcək. Erməni ekspertlər qorxurlar ki, Rusiyada futbol üzrə dünya çempionatı bitdikdən sonra Azərbaycan ordusu yenidən hücuma keçə bilər. Bu, çempionatdan sonra dərhal olmasa da, istənilən digər vaxt baş verə bilər".

**❑ E.PAŞASOY, "Yeni Müsavat"**

# Rusiya Avropadan neçə il geri qalıb?..



**Hüseynbala SƏLİMOV**

**Perspektivsiz "inkişaf yolu" tutan ölkələrdən kimsə tapılıb buna görə millətini və dövlətini qınayanda adam doğrusu, bir azacıq sevincək olur. Düşünürsən ki, hələ hər şey itirilməyibdir, bir nəfər sabah on olar, on da dönüb yüz...**

Bu mənada Rusiya da istisna deyil; ölkə tək coğrafi mənada yox, lap elə leksik və ictimai mənada da nəhəng bataqlıqdır.

Amma burada da bir də görürsən ki, kimsə ürəyinin diqtəsilə etiraz etməyə, həmvətənlilərini qəflət yuxusundan, meşşanlıqdan qopmağa səsləyir. Hərçənd ki, bu ölkədə pozitiv tendensiyaların baş qaldırması bizə yalnız bircə aspektdən maraqlı görünür: fikirləşirik ki, ruslar cəmiyyət olaraq insan kimi yaşamağa qərar verəndə onların özlərinin də, dövlətlərinin də ətraflarına münasibəti dəyişəcək, ətrafdakı xalqların da belə haqqının-hüququnun olduğunu qəbul etməyə başlayacaqlar.

Qərəz, bu günlərin söhbətidir. Bir rus yazıçısının fikirləri gözümə sataşdı. Deyir ki, Rusiya Avropadan azı yüz əlli geri qalıb! Bundan çıxış yolu kimi də elmə və təhsilə baxışın dəyişməsini təklif edir. Desəm ki, mənə rast gələn ilk təşəbbüs idi bu, təbii, düz olmaz: ən az dünyada rus ədəbiyyatı qədər cəmiyyətini, xalqını öyrətməyə çalışan ikinci ədəbiyyat yoxdur, hətta bəzən rus yazıçılarının sosial-etik konsepsiyaları o qədər yorucu və yeknəsəq olur ki, adam yazıçının ədəbiyyatı sadəcə, təhkiyə üslubu kimi seçdiyini düşünməyə başlayır.

Üstəlik, çaşıb iddia etsək ki, rus ədəbiyyatı yaxşı müəllim oldu, əlbət ki, bu da düzgün olmaz - hər şey göz önündədir, Rusiya hələ iki əsr bundan öncə deyildiyi kimi, "ağalar və qullar ölkəsi" olaraq qalır...

Ona görə də fikirləşirik ki, söhbət heç də elmdən və təhsildən, onların geriliyindən getmir. Düzdür, dünyada elm və təhsilin tərəqqisini ölçmək üçün də müxtəlif üsullar var. Biri, məsələn, Nobel laureatlarının sayıdır və bu kriteriyaya görə nə Rusiya, nə də ki, sonradan SSRİ ən öndə deyildi. Amma axırda da, necə deyərlər, quyruqda da sürünmürdülər. Elmin çox sahələrində sovet alimləri həqiqətən liderlik edirdilər...

Bəs onda problem nədədir axı? Belə bir lətifə var. Soruşurlar ki, Amerika universitetləri nədir? Cavab verilir ki, rus professorlar və çinli tələbələr!

Baxın, çox kiçik lətifədə ABŞ təhsil sisteminin son on illərdəki reallıqları əks etdirilibdir: öyrədənlər Rusiyadan və ya SSRİ-dən gədən professorlar, öyrənənlər isə çinlilərdir...

Deməli, problem başqadır və onun çözümünü başqa müstəvidə axtarmaq lazımdır: problem elmin maliyyələşdirilməsində, stimullaşdırılmasında, yaradıcı əməyə dəyər verməkdə və ona həvəsləndirməkdədir, ən əsası da iqtisadiyyatın xarakterində və strukturundadır, bundan da əvvəl, ölkənin sosial-siyasi modelindədir.

SSRİ qapalı ölkə idi, ona görə də intellektuallar burada qalıb çalışmağa məhkum idilər. İndi belə deyil: onlar ölkəni tərk edirlər. Bir tərəfdən də düz edirlər, çünki hər bir adamın perspektivi bir tərəfə, axı elmin özünün də reallıqları var: bu insanlar barışmalı olurlar ki, sevdikləri işlə başqa ölkələrdə, məsələn, ABŞ-da və Avropada daha rahat məşğul ola bilərlər!

Deməli, söhbət əgər Rusiyadan gedirsə, ölkəni intellektuallar üçün cəlbedici etmək lazımdır. Özü də bu, təkcə intellektuallara aid problem deyil, cəmi insanlar belədir: heç kim K.Abenin "Qumsallıqda qadın" romanının qəhrəmanı kimi qumluqlarda eşələnməyi öz alın yazısı hesab etmir...

Ona görə daha bir sual da yaranır: rus ziyalılarının sosial reseptlərində nə çatışmır? Ən qabaqcıl ruslar, düşüncəli insanlar belə Qərbdəki modernizasiyanı, texnologiyanı qəbul etməyə çağırırlar, amma bunları işlədəcək insanların yetişməsini və yeni sistemə uyğun sosial - iqtisadi modelin bərqərar olmasını istəmirlər.

Özü də bu, təkcə Rusiyanın düşünən adamlarına xas xüsusiyyət deyil, bütün mühafizəkarlar belə təklif edirlər: Avropadan elmi, texnologiyanı götürək, amma "özlüyümüzü", "ənənələrimizi" saxlayaq. Ona görə heç nə alınmır, çünki yenilik yamaq kimi qala bilmir, tez zamanda genişlənməyə, daha geniş bir arealı əhatə etməyə meylli olur. Ruslar isə bunu qəbul edə bilmirlər, bu səbəbdən də hətta yerlərində saymır, geriyə doğru yuvarlanırlar...

Rusiya kanallarında çoxlu siyasi şoular olur. Onların birində bir nəfər dedi ki, axı biz niyə Avropa ölkələri kimi normal ölkə olmayaq? Təsəvvür etməzsiniz, onun üstünə elə tökülüşdülər ki, yəqin, bir daha o, belə şoulara qatılmaq fikrinə düşməz...

Problem bundadır. Siz evin içini, necə deyərlər, super təmir edə bilərsiniz, amma bu evdə yaşayacaq insanlardan da

YENİ MÜSAVAT
N 137 (7026) 28 iyun 2018

# “İrandan gələn narkotik Şirvan və Cəlilabadda cəmləşir” - baş nazirin müavini

## Arzu Nağıyev: “Azərbaycan yerləşdiyi coğrafi məkan baxımından narkotiklərin daşındığı yolun bir hissəsidir”

**“Azərbaycana gətirilən narkotik vasitələrin 90 faizi Əfqanıstan mənşəlidir”. Bunu jurnalistlərə açıqlamasında baş nazirin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Həsənov deyib. O bildirib ki, Azərbaycanın 5 cənub rayonu- Astara, Lənkəran, Cəlilabad, Masallı, Biləsuvar rayonlarına İran tərəfindən Əfqanıstan mənşəli narkotiklər daxil olur: “Daxil olan narkotik vasitələr əsasən Şirvan və Cəlilabad rayonlarında cəmləşir və oradan paylanılır. Narkotranzitlə daxil olan narkotik marşutun son nöqtəsi Orta Asiya ölkələri, həm də Şərqi, Qərbi Avropa ölkələridir. Beynəlxalq narkomafiyanın diqqəti Azərbaycana artır, bu da ölkə iqtisadiyyatının inkişafı və dünyanın beynəlxalq diqqət mərkəzində olması ilə əlaqədardır”.**

Ə.Həsənov qeyd edib ki, son illər Azərbaycan hüquq-mühafizə orqanları tərəfindən qeyri-qanuni narkotik vasitələrin dövriyyədən çıxarılması halları artıb: “Bu ilin 5 ayında 1 ton 400 kq-a qədər narkotik vasitə aşkar edilərək götürülüb. Aidiyyəti nazirliklərimiz bu sahədə təbliğat işlərini gücləndiriblər. Bu problem ölkəmiz üçün spesifik problem deyil. Lakin ölkədə, regionda böyük tutumlu beynəlxalq tikinti layihələri aparıldığı, bir sıra sahələrdə yük daşımaları artdığı üçün təbii ki, beynəlxalq narkomafiyanın da ölkəmizdən müxtəlif daşınma yolları ilə narkotik vasitələri daşımaq istəkləri də artıb. Biz arxayınlaşmamalıyıq, aidiyyəti qurumlar öz tədbirlərini görməlidir”.



**Əli Həsənov deyib ki, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə aparmaq üçün Azərbaycanda milli hüquqi baza yaradılıb, Milli Məclis bununla bağlı 29 qanun qəbul edib:** “Azərbaycan BMT-nin 1961-ci il tarixli ”Narkotik vasitələr haqqında" Vahid Konvensiyasına, 1971-ci il tarixli “Psixotrop maddələr haqqında” Konvensiyasına və 1988-ci il tarixli “Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında” Konvensiyasına qoşulub".

**Ə.Həsənov Azərbaycanda qeydiyyatda olan narkotik istifadəçilərinin sayını da açıqlayıb:** “Azərbaycanda qeydiyyatda olan narkotik istifadəçilərinin sayı 30 mindən çoxdur. 30 mindən 12 mini Bakı şəhərini, 12 mini isə Lənkəran şəhərini əhatə edir. 2017-ci ildə 2000 nəfərdən çox şəxs narkotik istifadəçisi kimi qeydiyyata götürülüb”.

**Sabiq təhlükəsizlik zabiti, narkotiklərlə mübarizəyə “Qara kabus” adlı kitab həsr edən ekspert Arzu Nağıyev “Yeni Müsavat”a bildirib ki, Azərbaycanın İranla sərhəd olması və İranın Əfqanıstanla qonşuluqda yerləşməsi son nəticədə ölkəmizə narkotik axınının davamlı olmasına gətirib çıxarır:** “Əfqanıstandan Avropaya narkotik daşınmasının ən asan yolu Əfqanıstandan İran-Azərbaycan-Gürcüstan-Ukrayna-Moldova marşrutudur. Azərbaycan yerləşdiyi coğrafi məkan baxımından narkotiklərin daşındığı yolun bir hissəsidir. Əfqanıstandan Avropaya narkotik daşımalarında ən uyğun marşrut kimi ölkəmizin də olduğu marşrutdur”.

Əli Həsənov konkret rayonların adını çəkir, marşrutun haradan keçməsini, haradan yayılmasını açıqlayır. Belə olan təqdirdə Azərbaycan ərazisində narkodaşımaların qarşısının alınması niyə baş tutmur?

**Arzu Nağıyev deyib ki, narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınması üçün Mərkəzi Asiya Regional İnformasiya Mərkəzi mövcuddur:** “Bu mərkəzdə narkotiklərin qanunsuz dövriyyəsi haqda məlumatlar toplanır və müvafiq addımlar planlaşdırılaraq atılır. Həmin koordinasiya mərkəzində narkotrafikin qarşısının alınmasında iştirak edən müxtəlif dövlətlərin hüquq-mühafizə orqanlarının nümayəndələri təmsil olunurlar. Narkotrafikin qarşısının alınması üçün məlumatların əldə edilməsi, mübadiləsi və texniki cəhətdən dəstək olmalıdır. Bu istiqamətdə müəyyən işlər gedir və son vaxtlar instensivləşdirilib. Mətbuatda iri narkotik partiyalarının tutulması ilə bağlı məlumatlar var. Mərkəzi Asiya Regional İnformasiya Mərkəzində cəmləşən dövlətlərin narkotiklərin qanunsuz dövriyyəsinə qarşı səylərini birləşdirmələri son nəticədə dövriyyəni qat-qat azalda bilər”.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**Musavat.com**

# Kəskin istilərdə açıq havada işləyənlər

## Dövlət qurumları qanuna əməl etdiklərini deyirlər

**Yaxın günlərdə Azərbaycan ərazisində anomal istilər olacaq. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin bununla bağlı yaydığı açıqlamada bildirilir ki, ayın sonunadək ölkə ərazisində anomal isti hava şəraiti müşahidə olunacaq, bir sıra yerlərdə temperatur 42 dərəcəyədək yüksələcək.**

Havaların belə kəskin istiləşməsi açıq havada işləyən insanların təhlükəsizliyi məsələsini aktuallaşdırır. Kəskin istilər cəmi 2 gündür başlayıb, artıq günvurmaya məruz qalanlar var. Belə ki, dünənə qədər Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına günvurma ilə bağlı 14 nəfər müraciət edib. Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının baş həkimi Rauf Nağıyevin dediyinə görə, günvurma diaqnozu ilə müraciət edənlərin hər birinə yerindəcə ilkin tibbi yardım göstərilib (APA).

Əmək Məcəlləsinin 233-cü maddəsinə əsasən, havanın temperaturu + 41 dərəcə selsidən çox olduğu hallarda açıq havada və sərinləşdirici qurğular olmayan örtülü binalarda, otaqlarda və digər iş yerlərində bütün növ işlərin görülməsi dayandırılmalıdır. Belə hallarda işçilərin həyat və sağlamlığının mühafizəsi məqsədilə onlara sərinləşmək üçün imkan yaradılmaqla fasilələr verilməli və işəgötürənlə həmkarlar təşkilatının birgə qərarı əsasında fasilənin sayı, müddəti müəyyən olunmalı, eyni zamanda iş zamanı verilmiş fasilələr iş vaxtına daxil edilməlidir. Həmin fasilələr zamanı əmək haqqı işçilərin tarif maaşına görə ödənilməlidir. İş dayandırıldıqda boşdayanma vaxtının haqqının işçinin təqsiri üzündən baş verməyən boşdayanma kimi, tarif maaşının üçdə iki hissəsindən az olmayaraq ödənilməsi təmin edilməlidir.

Hər il belə hava xəbərdarlığı edilən zaman Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti işəgötürənlərə müraciət edərək, onları Əmək Məcəlləsinin tələblərinə əməl olunmasına çağırır.

**Onu da qeyd edək ki, özəl şirkətlərlə yanaşı, bir sıra dövlət qurumları da var ki, işçiləri açıq havada işləyirlər. Bunlar arasında istehlakçılara fasiləsiz xidmət göstərməli olanlar da var. Belə qurumlardan biri olan “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin İctimaiyyətlə əlaqələr xidmətinin rəhbəri Tanrıverdi Mustafayev bildirir ki, qurumda bu kimi işləri Təhlükəsizlik İdarəsi tənzimləyir:** “Bildiyiniz kimi, biz 24 saat ərzində istehlakçılara xidmət göstərən bir qurumuq. Bu baxımdan, bəzi hallarda elə olur ki, günün qızmar vaxtlarında da işləməyə məcbur qalırıq. Bu zaman işçilər günəşdən qorunmaq üçün lazım olan bütün vasitələrlə təmin olunurlar. Çalışırıq ki, istehlakçılarımızın enerji ilə təchizatında uzunmüddətli fasilə yaranmasın. Lakin əmək qanunvericiliyinin tələblərinə də əməl etməliyik. Tikinti-quraşdırma işlərində buna tam əməl olunur. Məsələn, hazırda Cənub və Aran bölgəsində 10-a yaxın yarımstansiya inşa edirik. Kəskin istilər olan zaman günorta olanda havanın ən isti vaxtlarında işlərə bir neçə saatlığa fasilə verilir. İşçilərin sağlamlığı, əməyin təhlükəsizliyi bizim üçün ən vacib şərtlərdən biridir”.



**“Azərsu” ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllının sözlərinə görə, onlar da əmək qanunvericiliyinin tələblərinə əməl edəcəklər:** “Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ölkə ərazisində anomal istilərə dair xəbərdarlığı ilə bağlı ”Azərsu" ASC-nin müəssisə və təşkilatlarında çalışan əməkdaşların sağlamlığının mühafizəsi və günvurmadan qorunmaları məqsədilə temperaturun yüksək olduğu günlərdə günorta saatlarında işçilərin açıq günəş altında işləmələrinə icazə verilməyəcək. Qapalı şəraitdə və kölgədə isə işlər davam etdiriləcək".

**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli də təmsil etdiyi qurum tərəfindən işçilərin sağlamlığının qorunması üçün bütün tədbirlərin görüldüyünü deyir:** “Əmək Məcəlləsinin tələbinə əsasən 42 dərəcədən yuxarı temperatur olanda günün qızmar saatlarında iş prosesinə fasilə verilir. İş səhər və axşamüstü aparılır”. A.Nəcəflinin sözlərinə görə, kəskin istilər olan günlərdə iş saatları azalsa belə, işçilərə tam iş gününün maaşı ödənilir.

❑ **DÜNYA,**
**“Yeni Müsavat”**

# Boşanmaları artma səbəbləri - dözümsüzlük, yoxsa?..

## Cəmiyyət "mühəndisləri" çıxış yollarından danışdılar

**Son illərdə Azərbaycanda boşanan ailələrin sayı kəskin artıb. Statistika da bunu təsdiq edir. Dövlət Statistika Komitəsinin bu günlərdə yaydığı məlumata görə, ilin ilk 4 ayı ərzində 17 715 nikah, 4884 boşanma halı qeydə alınıb. Beləliklə, əhalinin hər 1000 nəfərinə münasibətdə nikahların sayı 5,5, boşanmaların sayı isə 1,5 olub.**

Boşanmaların sayının bu qədər olması cəmiyyətdə narahatlıqla qarşılanır. Xüsusən də bəzi gənc ailələrin çox erkən, hətta bir ay sonra boşandıqlarının şahidi oluruq. Bəs səbəb nədir və belə halların qarşısını almaq üçün hansı tədbirlər görülməlidir?

Qeyd edək ki, son illər bu mövzu kifayət qədər aktualdır və xeyli sayda müzakirələr aparılır, problemdən çıxış yolları axtarılır. Bəzi ekspertlər qeyd edirlər ki, gənclər arasında dözümsüzlük boşanmalara gətirib çıxaran əsas amillərdən biridir. Səbəblərdən biri də gənclərin ailə məsələlərinə, dəyərlərinə məsuliyyətsiz yanaşması, psixoloji durumlarının aşağı səviyyədə olmasıdır. Əgər 20-30 il əvvəl cütlüklər ailələrinin dağılmaması üçün mücadilə aparır, bir çox problemlərə göz yumub, dözümlülük nümayiş etdirirdisə, bu gün bu amil yavaş-yavaş sıradan çıxmağa doğru gedir. Hətta nəinki gənc ailələr, 20 ilin ailələri də dözümsüzlük səbəbi ilə dağılır.

Digər əsas səbəblərdən biri qismində gənc ailələrə kənar müdaxilə və basqıların olması göstərilir. Daim basqı altında qalmaqdan, ailədaxili dedi-qodulardan bezən cütlüklər isə sonda boşanmaq qərarına gəlir.

Boşanmaların artma səbəblərindən biri də sosial şəbəkələr göstərilir. Aparılan məhkəmə proseslərindən də aydın olur ki, boşanmaların artmasında sosial şəbəkələrin təsiri az deyil. Hətta son illərdə sosial şəbəkələr üzündən ölkəmizdə ailə münaqişələrinin, qətllərin sayının artdığının şahidi oluruq.

Bu iddia təkcə ölkəmizdə deyil, digər inkişaf etmiş ölkələrdə də var. Məsələn, amerikalı ekspertlər qeyd edirlər ki, ABŞ-da hər 6 boşanma qərarının 1-də facebook-un adı çəkilir. Bildirilir ki, yeni dostlar, yeni çevrə və keçmiş dostları birləşdirən səhifələr evlilikləri təhlükəyə salır. Bu səhifələr ailələrdəki münaqişələrin daha da böyüməsinə səbəb olur.

Başqa bir səbəb gənclərin sosial şəbəkələrdə tanış olub, bir-birini yaxından tanımadan tez bir zamanda evlənmək qərarına gəlməsidir. Araşdırmalara görə, boşanmaların 20-25 faizi nikahın adətən tanışlıqdan 3-4 ay sonra bağlanması ilə əlaqədardır. Digər səbəblər kimi alkoqollu içkilər, narkotik vasitələrin istifadəsi, sonsuzluq problemi gəlir.

Rəsmilər isə bildirirlər ki, Azərbaycanda boşanmaların sayı bağlanan nikahlara nəzərən 20-23 faizdir, hansı ki, bu göstərici Türkiyədə 28, Fransada 35, Almaniyada 37 faizdir. Həmçinin qeyd olunur ki, MDB məkanında boşanmaların sayı ilə əlaqədar müqayisəli təhlilə görə Azərbaycanda vəziyyət daha qənaətbəxşdir.

**Mövzu ilə əlaqədar "Yeni Müsavat"a danışan psixoloq Elnur Rüstəmov deyir ki, boşanmaların artması təkcə ölkəmizdə deyil, digər ölkələrdə də müşahidə edilməkdədir:** "Sadəcə, bir çox inkişaf etmiş, o cümlədən Avropa ölkələrində bu məsələ ilə bağlı müəyyən inzibati tədbirlər görülür. Ümumi statistikaya baxdıqda görürük ki, Azərbaycanda boşanmaların sayı 90-cı illərdən sonra artmağa başlayıb. Burada daha psixoloji, sosial, intim, eyni zamanda urbanizasiya faktorları çox ciddi təsir göstərir. Məsələn, insanların komfort həyata daha çox üstünlük verməsi. Əvvəllər 18-19 yaşında ailə quran qızlar çox idisə, bu gün azdır. Və yaxud tərəflərin bir-birindən çox şey gözləntisi və bu gözləntilərin yerinə yetməməsi əsas amillərdir. Xanımlar bu gün işgüzar olmağa və kişilərdən gözləntilərini dəyişdirməyə başlayıb. Tərəflərin uzun müddət bir yerdə yaşaması üçün onlardan son dərəcə məsuliyyətli, daha da diqqətli olması tələb olunur ki, son zamanlarda bunlar özünü doğrultmur. Digər əsas səbəblər kimi sosial şəbəkələri, mobil telefonları, interneti göstərə bilərik. Lakin bizim üçün əsas deyil, törəmə səbəblərdir. Əgər ailədə münasibətlər yaxşı olarsa, inanmıram ki, tərəflər vaxtının çox hissəsini sosial şəbəkədə və yaxud mobil telefonda kiminləsə yazışmağa sərf etsin. Əslində bunların hamısı yaranmış boşluğu doldurmaq üçündür".

**Psixoloq hesab edir ki, boşanmaların qarşısını almaq üçün qabaqlayıcı tədbirlər görmək üçün mənəvi dəyərlər qabardılmalı, bu istiqamətdə konsepsiya hazırlanmalı, maarifləndirmə işləri aparılmalıdır:** "Həmçinin inzibati tədbirləri kifayət qədər sərtləşdirmək lazımdır".

**"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova isə açıqlamasında bildirdi ki, statistikaya əsasən, nikaha girənlərin sayına nəzərən boşanmaların sayı o qədər də böyük deyil:** "Ümumiyyətlə, boşanma təbii prosesdir. Doğrudur, bu proses bizə problem gətirir, düşünürük ki, ailə dəyərləri dağılır və sairə. Lakin insan davranışları da dəyişir. Burada məsuliyyət daşımaq prinsipləri əvvəlki kimi deyil. Məsələn, əgər əvvəllər ailə qurarkən ailə məsuliyyətini dərk edərək, onu sona qədər çatdırmağı, uşaqları birgə böyütməyi düşünürdüksə, indi müəyyən çətinliklərlə üzləşən kimi bundan qaçmaq istəyirik. Bundan da zərər çəkənlər əsasən uşaqlar olur. Yəni şüurlu ailə modeli olan, düşünərək, bir-birinə qarşılıqlı hörmət edərək yaşayan ailələr indi çox azdır".



**Qurum sədri də boşanmaların artma səbəblərinin çox olduğunu dedi:** "Burada qeyd etdiyim kimi, məsuliyyətsizlik, ailədaxili zorakılıq, psixoloji problemlər var. Nikah üçün ərizə verən cütlüklərə bir ay möhlət verilir. Bu bir ay ərzində hər iki tərəf bir-birini yaxşı tanımalıdır. Necə ki, nikah öncəsi məcburi müayinə yoxlanışı olur, eyni zamanda məcburi psixoloji testlərdən keçmə məsələsi də olmalıdır. Tərəflər psixoloqlara getməli, şəffaf şəkildə bir-biriləri haqqında məlumat verməlidilər. Bir ay ərzində cütlüklər olduqları kimi görünmürlər. Məcburi tibbi müayinə bir çox məsələlərin üstünü açdı. Əvvəllər cütlüklər öz sağlamlıqları barədə bir-birinə məlumat vermirdi".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# 5 ölkənin vətəndaşlarının ABŞ-a giriş qadağası qüvvəyə mindi

## Ali Məhkəmə Donald Trampın israr etdiyi qadağanı təsdiqlədi



**ABŞ-ın Ali Məhkəməsi prezident Donald Trampın əhalisinin çoxunun müsəlman olduğu 5 ölkənin vətəndaşlarını əhatə edən səfər qadağasını təsdiqləyib.**

"Yeni Müsavat" BBC-yə istinadən xəbər verir ki, aşağı məhkəmə bunun konstitusiyaya zidd olduğunu hesab etsə də, Ali Məhkəmə səs çoxluğu ilə birinci qərarı ləğv edib.

Ağ Evdə Trampın təklif etdiyi "divar sərhədi" müzakirə olunarkən, o, məhkəmə qərarını "böyük uğur" kimi qiymətləndirib. Qərar Tramp administrasiyasının qələbəsi kimi dəyərləndirilib. Səfər qadağası İran, Liviya, Somali, Suriya və Yəməndən olan bir çox insanın ABŞ-a daxil olmasını qadağan edir.

Tramp Ali Məhkəmənin qərarının "millət və konstitusiya üçün böyük qələbə olduğunu" deyib. "Biz sərt olmalıyıq və təhlükəsizlikdə olmalıyıq", - Tramp deyib.

Tramp "Əgər Avropa Birliyinə baxsanız, görərsiniz ki, onlar indi mühacirət siyasətini sərtləşdirir, çünki onlar artıq həddi keçiblər" deyib. "Və düzü, o ölkələrin bir çoxu artıq "həmin ölkələr" deyil" Tramp əlavə edib.

Ali Məhkəmənin təsdiqlədiyi səfər qadağası bir çox qaçqın və insan haqları qrupları tərəfindən tənqid edilirdi.

Məhkəmə qərarından az sonra Donald Tramp twitter hesabında "Ali Məhkəmə səyahət qadağasını təsdiqləyib" yazıb. Məhkəmə prezidentin milli təhlükəsizlik baxımından xarici vətəndaşların Amerikaya girişini yasaqlaması qərarını 5 lehinə, 4 əleyhinə səslə qəbul edib.

Tramp Mühacirət və Vətəndaşlıq aktına əsasən bu addımın atıldığını bildirib.

"Prezident qanuni şəkildə ehtiyatla davranır"- deyə, baş hakim Con Roberts bildirib. Hökmün əleyhinə olanlar 4 liberal hakimdir. Sentyabr ayında əldə edilən "səyahət qadağası"na əsasən İran, Liviya, Somali, Suriya və Yəmən vətəndaşları, habelə Şimali Koreya və Venesuela hökuməti ilə əlaqəsi olanların Amerikaya girişi qanunsuzdur. Çad daha əvvəl siyahıya salınsa da, sonradan çıxarılıb.

Qərarla bağlı 16 ay davam edən məhkəmə proseslərindən sonra 5 ölkəyə dair hökm çıxarılıb. Opponetlər İran, Liviya, Somali, Suriya və Yəmən vətəndaşlarının səyahət qadağasını müsəlmanlara qarşı ideoloji qadağa adlandırır.

Tramp hakimiyyətə gələndən etibarən səfər qadağası mövzusu gündəmdə idi. ABŞ prezidenti zaman-zaman bununla bağlı öz irad və təkliflərini açıqlayırdı. Sözügedən qadağa beş müsəlman ölkəsindən - İran, Liviya, Somali, Suriya və Yəməndən olan mühacirlərin, qaçqınların və viza sahiblərinin böyük qisminin ABŞ-a girişini qadağan edir.

Prezident Tramp vəzifəyə gəldikdən qısa müddət sonra bu qadağanı imzalamışdı. Qadağanın ilk layihəsi Suriya, İraq, İran, Liviya, Somali, Sudan və Yəmən vətəndaşlarını əhatə edirdi.

İraqın çıxarıldığı siyahıya 2017-ci ildə Venesuela, Şimali Koreya, Çad da əlavə edilmişdi. Çad da daha sonra siyahıdan çıxarılmışdı. Venesuela və Şimali Koreyaya aid qadağa isə Ali Məhkəməyə qədər aparılmamışdı.

Xatırladaq ki, bu mövzu ilə bağlı Trampın ən səs gətirən açıqlaması 12 yanvar 2018-ci ildə verilib. Həmin vaxt Tramp "Axı biz niyə "zir-zibil ölkələrdən olan adamları qəbul etməliyik" deyərək ciddi səs-küy yaratmışdı. O, bu sözləri Ağ Evdə keçirdiyi iclasda mühacirlərin ünvanına demişdi. Həmin vaxt da qeyd edilmişdi ki, sözlər Haiti, Salvador və Afrika ölkələrinin ünvanına deyilib. Ağ Ev isə bu məlumatı ilk gündən təkzib etmədi. BMT nümayəndəsi ABŞ prezidentinin sözlərini "irqçi" kimi təsvir etdi. Ağ Evin sözçüsü Raj Shah bildirib ki, "müəyyən Qərb siyasətçiləri xarici ölkələrlə mübarizəni seçir, amma prezident Tramp həmişə Amerika xalqının maraqları üçün mübarizə aparır".

O, eyni zamanda demişdi ki, bəzi immiqrasiyada limit tətbiq edən ölkələr kimi prezident Tramp da ölkə iqtisadiyyatını inkişaf etdirməklə, "böyük xalqımıza inteqrasiya ola bilməklə ABŞ-ı gücləndirəcək" mühacirlərin gəlməsi üçün imiqrasiya siyasətində dəyişikliklə bağlı mübarizə aparır.

BMT-nin İnsan hüquqları üzrə Ali Komissarlığının sözçüsü Rupert Colville deyib ki, "təsdiq olunarsa, bu, ABŞ prezidentinin sarsıdıcı və rüsvayçı şərhidi və mən təəssüf edirəm ki, buna irqçilikdən başqa bir söz tapa bilmirəm".

Konqresdə yeganə haitili-amerikalı olan Mia Love tələb edib ki, Tramp bu "nəzakətsiz, ayırıcı" şərhinə görə üzr istəsin.

Salvadorun ABŞ-dakı səfirliyi hələ ki Trampın sözlərinə münasibət bildirməyib.

Donald Tramp hakimiyyətə gələndən bəri bəzi ölkələrə qarşı sərt imiqrasiya siyasətini tətbiq etməyə çalışır. O, "Grenn-Card" lotereyasının ləğvinə çağırır və Meksika ilə ABŞ sərhədində divar səddi tikmək üçün planlar təqdim edir.

❑ **Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 137 (7026) 28 iyun 2018

# Dollar İranı qarışdırır

## Hökumətin iqtisadi kursu dalana dirənib, inflyasiya daxildə ciddi etirazlara səbəb olub

**İranda sosial tələblərlə aksiyalar baş verib. Bu həftə dolların qara bazarda 8 min tümənə (75-80 min rial. - K.R.) satılması yerli ticarətçiləri küçələrə töküb. Paytaxt Tehranda ticarətçilər hökumət əleyhinə yürüş ediblər. Həftənin əvvəli ən geniş aksiyalar Tehranda olub, ancaq eyni zamanda digər bir neçə kiçik şəhərdə də etirazlar qeydə alınıb.**




Hökumət isə etirazların qızışmasında təxribat amilindən şübhələnir. Artıq bir neçə nəfər, o cümlədən hadisələri qızışdırmaqda ittiham olunan polislər həbs edib. Hələlik təxribatın xaricdən, yoxsa ölkə daxilindən qızışdırıldığı haqda məlumat verilmir.

Qeyd edək ki, İranda yerli valyutanın dəyərdən düşməsi Həsən Ruhaninin prezidentliyi dönəmində daha da şiddətlənib. Bu ilin əvvəlində 1 ABŞ dolları 45-48 min rial ətrafında dəyişdiyi halda maydan bu yana sürətlə dəyər itirib. Xüsusən də prezident Trampın İranla nüvə anlaşmasını ləğv etməsi və Tehrana qarşı sanksiyaları bərpa etmək qərarı İran rialına ağır zərbə vurub. Hətta hökumətin dollar satışını nəzarətə götürməsi belə inflyasiyanın qarşısını ala bilməyib. Əksinə, "qara bazar" çiçəklənib. Ən son olaraq "qara bazar"da dollar 90 min riala satılıb.

BBC-nin məlumatına görə, Tehranın mərkəzindəki Laləzar küçəsində ticarətçilər mağazalarını bağlayıb. Onlar təkərlərə od vurublar. Məlumatlara görə, etirazlar həmçinin Kirmanşah və Təbriz şəhərində də keçirilib. Çərşənbə axşamı günü etirazlar silsiləsi parlamentdə müzakirəyə çıxarılıb. Məclis üzvlərindən bəziləri güc nazirliklərini hesabat verməyə səsləyiblər.

İran parlamentinin Xarici siyasət və milli təhlükəsizlik məsələləri üzrə komissiyasının fövqəladə toplantısı keçirilib. Toplantıda ölkəyə xarici sərmayə cəlb olunması müzakirə olunub. Ancaq aydın məsələdir ki, indi İrana sərmayə cəlb eləmək çox çətindir. Sanksiyalar isə günü-gündən daha da dərinləşir. Bu isə o deməkdir ki, Ruhani administrasiyasının iqtisadi-siyasi kursu əhəmiyyətini itirir. Məsələ ondadır ki, 2013-cü ildə Həsən Ruhani iranlılara məhz sanksiyaları ləğv edib xarici sərmayəni ölkəyə cəlb edəcəyinə inandırıb. Seçicilər isə məhz sanksiyaların ləğv olunacağı, ölkənin iqtisadi baxımdan xarici sərmayələrə açılacağı ümidi ilə Ruhanini seçdilər. Lakin Trampın gəlməsi ilə bu proses pozuldu. Baxmayaraq ki, 2015-ci ildə İran nüvə anlaşmasını imzalamaqla ABŞ-la münasibətləri yumşaldıb, müəyyən bir nəfəslik əldə etmişdi.

Lakin indi vəziyyət dəyişib. Aydın olub ki, ABŞ bütün dünyanı İrana qarşı sanksiyalara cəlb etmək istəyir. Doğrudur, böyük mənada Rusiya, Çin, qismən Avropa və region ölkələri İranla ticarət əlaqələrini davam etdirəcək. Lakin bu, o qədər də yetərli olmaya bilər. İndi İranın xilası yenidən daxili istehsalı gücləndirmək, xaricdən, xüsusən də "etibarsız" Qərb ölkələrindən asılılığı azaltmaqdır. Ruhani hökumətinin isə bu yöndə təcrübəsi və necə deyərlər, plan-proqramı yoxdur.

Üstəlik, daxili iqtisadiyyatın böyük hissəsi "bunyadlar", yəni vəqflər vasitəsilə inqilabçı qurumların, o cümlədən ordunun - Sepah - nəzarətindədir. Ordu isə Ruhani hökuməti ilə yola getmir. Ötən gün ali dini liderin hərbi məsələlər üzrə müşaviri, Sepahın keçmiş komandanı Yəhya Rəhim Səfəvi hökuməti sərt şəkildə tənqid edib. Səfəvi deyib ki, hökumətin yaratdığı problemlər ölkə əhalisində bir sıra rahatsızlıqlar yaradır: **"Bu, hakimiyyətə qarşı etiraz aksiyalarının keçirilməsinə səbəb olur. Bazarda tacirlərin hakimiyyətə təzyiqi ölkədəki narahatlıqları göstərir".**

O, İran hökumətinə başçılıq edən prezident Həsən Ruhanini hədəf alaraq bildirib: **"Belə görünür ki, hökumət olmasa, ölkəni daha rahat idarə etmək olar. Ali rəhbər nüvə məsələsi ilə bağlı müzakirələri dəstəkləmədi. Ancaq İran konstitusiyasına bağlılığını irəli sürən Həsən Ruhani hökuməti bu müzakirələrə icazə verdi".**

Generalın açıqlaması ordu və hökumət arasındakı vəziyyəti gün üzərinə çıxarır. Mühafizəkar xətt və onun flaqmanına çevrilən Sepah hökumətin ABŞ-la nüvə danışıqlarına getməsini hələ də bağışlaya bilmir və təslimçilik kimi qiymətləndirir. İndi isə nüvə sazişi faktiki olaraq qüvvədən düşüb və ölkə iqtisadiyyatının çökməsi müxaliflərinin Ruhaniyə yüklənməsinə səbəb olur.

Ölkədə isə vəziyyət getdikcə daha da çətinləşir. Hökumət inflyasiyanın qarşısını ala bilmir, bahalaşma sürətlə gedir. Digər tərəfdən, İranın region düşmənləri ona qarşı basqıları daha da artırır. BƏƏ təhlükəsizlik idarəsinin rəisi deyib ki, hazırda İsrailin ərəblərlə ciddi bir problemi yoxdur, ancaq İran bizim üçün əsas təhdiddir. ABŞ, İsrail, region müttəfiqləri İrana qarşı təzyiqləri günü gündən artırır. Bu isə o deməkdir ki, qarşıdakı günlərdə İranda daxili siyasi hadisələr daha da gərginləşəcək. Hökumət təcili tədbirlər görməsə, vəziyyətin daha da pisləşməsi gözləniləndir.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# Rusiyadan toyuq əti idxalı məhdudlaşdırıldı- "quş qripi" təhlükəsi

## Yolçu Xanvəli: "Ölkəmizdə quş xəstəlikləri ilə əlaqədar sabitlikdir və önləyici tədbirlər həyata keçirilməkdədir"



**Bu günlərdə "quş qripi" yenidən Rusiyaya geri dönüb. Belə ki, Beynəlxalq Epizootik Büro Rusiyanın Kursk, Penze, Samara bölgələrində yüksək patogen "quş qripi" aşkar edib. Bu səbəbdən Belarus və Qazaxıstan artıq Rusiyanın adıçəkilən ərazilərindən quş məhsullarının idxalını dayandırıb.**

Azərbaycan da artıq Rusiyanın bəzi bölgələrindən quş əti məhsullarının idxalını dayandırıb. Bu barədə **Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin mətbuat xidmətinin rəhbəri Yolçu Xanvəli** "Yeni Müsavat"a açıqlamasında bildirib:

"Bildiyiniz kimi, iyun ayının 13-də heyvan sağlamlığı təşkilatında qeyd olundu ki, Rusiyanın Penze vilayətində "quş qripi" aşkar edilib. Ayın 20-də isə Ümumdünya Heyvan Təşkilatı Rusiyanın digər vilayətlərində də «quş qripi»nin aşkar olduğu barədə məlumat yaymışdı. Bu məlumatlara istinad edərək Rusiyanın həmin ərazilərdən diri quş və quş məhsullarının gətirilməsinə müvəqqəti məhdudiyyət tətbiq etmişik. Yəni həmin ərazilərdən quş ətinin gətirilməsi iş adamlarına məsləhət bilinmir.

Eləcə də Moskva və Moskva ətrafı ərazilərdə bundan əvvəl "quş qripi" aşkar edilmişdi. Doğrudur, məlumata görə, artıq orada "quş qripi" xəstəliyi aradan qaldırılıb. Buna baxmayaraq, hələ ki həmin ərazilərdən də quş əti məhsulları ölkəmizə gətirilmir".

**Qurum rəsmisi qeyd edib ki, bu yaxınlarda ölkəmizdə xəstəliklə əlaqədar olaraq monitorinq keçirilib:**

"Bu zaman həm ev quşları, həm quşçuluq təsərrüfatı fermalarındakı, həm də ölkəmizə miqrasiya edən köçəri quşlardan qan və patoloji materiallar götürüldü, "quş qripi"nin növlərinə görə yoxlamalar aparıldı. Sevindirici haldır ki, həmin vaxtda ökəmizdə nə ev, nə də çöl quşları arasında bu xəstəlik aşkar edilmədi. Monitorinq nəticələrinə istinad edərək bildiririk ki, ölkəmizdə quş xəstəlikləri ilə əlaqədar sabitlikdir və önləyici tədbirlər həyata keçirilməkdədir".

❑ **Xalidə GƏRAY,**



# ABŞ şirkəti Türkiyədə neft axtaracaq

**ABŞ şirkəti Türkiyədə neft axtaracaq. AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin Enerji və Təbii Sərvətlər Nazirliyinin Neft İşləri İdarəsinin "Resmi Gazete"də yaydığı məlumatda deyilir. Bildirilir ki, mərkəzi ofisi ABŞ-da yerləşən "Aladdin Middle East Ltd." şirkətinin Türkiyənin Siirt vilayətində neft axtarışına dair müraciəti təsdiqlənib və şirkətə 5 illik lisenziya verilib. Şirkət 30 min 548 hektar olan sahədə neft axtarışına dair lisenziya almaq üçün 2017-ci il avqustun 4-də müraciət edib.**

"Aladdin Petroleum Corporation" adı altında 1926-cı ildə Kansas ştatında qurulan şirkət Kansas və ABŞ-ın müxtəlif yerlərində böyük neft yataqlarının işlənməsində iştirak edib. Şirkət Karib adaları, Cənubi Avstraliya sahilləri, Qərbi Afrika və Yaxın Şərqdə fəaliyyət göstərib. Onun törəməsi "Aladdin Middle East Ltd." isə neft-qaz axtarış və istehsal şirkəti kimi 1961-ci ildə qurulub və Türkiyənin neft-qaz ehtiyatlarının axtarılması və işlənməsinə fokuslanıb. Şirkətin inzibati mərkəzi Kansas, əməliyyat mərkəzi isə Ankaradır.

**Elan**

**Ağdaş rayon Aral Bir kənd sakini Cavadov Həsrət Sədi oğluna məxsus JN 32 K nömrəli şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 137 (7026) 28 iyun 2018

# Yaponìya, Seneqal, yoxsa Kolumbìya- qrup oyunları bu gün bìtìr

## G qrupunda hər şey məlumdur; H qrupunda isə üç komanda "pley-off"a vəsiqə uğrunda mübarizə aparacaq

**Bu gün H və G qrupunda da son oyunlar keçiriləcək və bununla da qrup mərhələsinə yekun vurulacaq. Saat 18:00-da H qrupunda Yaponiya - Polşa və Seneqal - Kolumbiya qarşılaşması başlayacaq. Saat 22:00-da isə G qrupunda son oyunların- İngiltərə və Belçika, Panama və Tunis oyunun startı veriləcək.**



### Polşa evə, Yaponiya davam...

Bu qrupdakı Polşanın taleyi məlumdur: Adam Navakın hər iki oyunda uduzan komandası evə qayıdır. Amma digər üç komanda "pley-off" şanslarını saxlayır. Yaponiyanın 4, Seneqalın 4, Kolumbiyanin isə 3 xalı var. Bu səbəbdən bu gün hər üç komanda qələbə üçün vuruşacaqlar.

Əgər Yaponiya bu oyunda heç-heçə edərsə, Seneqal və ya Kolumbiya qalib gəlirsə, o halda növbəti mərhələyə Yaponiya və ikinci görüşün qalibi çıxacaq. Seneqal, Kolumbiya, Yaponiya heç-heçə edərlərsə, o halda Yaponiya yenə mərhələ adlayan tərəf olacaq. Çünki o komandaların birinə qalib gəlib, biri ilə isə heç-heçə edib. Seneqal qalib gələrsə, Yaponiya heç-heçə və ya uduzarsa, yenə gündoğan ölkənin təmsilçiləri gülən tərəf olacaqlar. Belə bir mürəkkəb kombinasiyalarla üzləşməmək üçün isə hamı qələbəyə oynayacaq.

Polşa sifətini qorumaq istəyərsə, bunun mənası yox. Əksinə, Yaponiyanın qarşısında əngəl olmasalar, daha ədalətli olar.

Polşa bu mundialda komandaya olan ümidləri heç etdi. Polşa sonuncu dəfə dünya çempionatında 2006-cı ildə iştirak etmişdi və bu mundiala uzun fasilədən sonra, amma böyük ümidlərlə gəlmişdi. Bu ümid səbəbsiz də deyildi.

Polşa seçmə mərhələdə E qrupunda 25 xalla bu qrupda lider oldular. Komandanın kapitanı Robert Levandovski isə keçirilən 10 görüşdə 16 qol vuraraq Avropa zonası üzrə DÇ təsnifat mərhələsinin ən məhsuldar futbolçu kimi adını tarixə yazdırdı. Polşa mundial hazırlıqları çərçivəsində dörd sınaq oyununda yalnız Nigeriyaya 0:1 hesabı ilə uduzmuşdu. Digər oyunlarda - Cənubi Koreyaya 3:2, Litva ilə oyunda isə 4:0 hesabı ilə qalib gəlmişdi. Çili ilə oyunda isə 2:2 bərabərliyə nail olmuşdu.

Amma həmin Polşanı bu mundialda görmədik. İlk oyunda Seneqala 1:2 hesablı məğlub olanda sonra Kolumbiya ilə qarşılaşmada da daha rüsvayçı nəticə qeydə alındı: 0:3. Bu, 2013-cü ildən bəri çalışan baş məşqçi Adam Navak üçün də, onun komandası üçün də mundialın sonu demək idi...

Qrupun iddiasız komandası olduğu deyilən Yaponiya millisi isə 4 xala sahibdir və "pley-off"a çıxmağa çox yaxındır. Yaponiya indiyədək iştirak etdiyi beş mundialda yalnız iki dəfə- 2002 və 2010-cu illərdə qrup mərhələsini keçə bilib. Yaponiyanın baş məşqçisi Akira Nisino bu posta 2018-ci ilin aprelində təyinat alıb. O, yığmanın baş məşqçisi postunda Vahid Halilhodziçi əvəzləyib. 63 yaşlı mütəxəssis 1996-cı il Atlanta Yay Olimpiya Oyunlarında Yaponiya yığmasına rəhbərlik edib. Bununla yanaşı, Nisino "Qamba Osaka" ilə birlikdə klublararası dünya çempionatının yarımfinalına qədər irəliləyə bilib. Heyətində əsasən, Almaniyanın müxtəlif klublarında oynayan futbolçulardan təşkil olunmuş Yaponiya millisi Kolumbiyanı ilk oyunda məğlub edib, güclü Seneqal millisinə qarşı oyunda isə əzmkar heç-heçəyə(2:2) nail olub. Bu gün Polşa son oyunda qələbə qazanmağa çalışacaq, amma Yaponiya da asan yem olmayacaq...

### Seneqal, yoxsa Kolumbiya?

Seneqal ikinci dəfədir ki, mundialda iştirak edir və özünü təhlükəli rəqib kimi tanıtmağı bacarıb. Yada salaq ki, Seneqal ilk dəfə mundiala 2002-ci ildə qatılıb və 1/4 finala qədər irəliləyib.

Seneqalın xüsusilə hücum xəttində Mame Biram Diuf ("Stok Siti", İngiltərə), Balde Keyta ("Monako", Fransa), Sadio Mane ("Liverpul", İngiltərə), Mbaye Nyanq ("Torino", İtaliya) kimi futbolçular var və onlar istənilən komanda üçün təhlükədirlər. Seneqal məhsuldar oyun nümayiş etdirir. Qapısından üç top buraxsa da, afrikalılar rəqiblərini 4 dəfə məyus edə biliblər. Əgər Yaponiya millisinin əzmkar oyunu olmasaydı, Seneqal artıq növbəti mərhələ oyunu barədə düşünəcəkdi. Bu gün onların rəqibləri ilk oyunda büdrəyən, ikinci oyunda isə Polşa üzərində inamlı qələbə qazanan Kolumbiya millisidir. Kolumbiyanın yarımmüdafiə (Xuan Kuadrado - "Yuventus", Xames Rodriqes - "Bavariya") və hücum xətti (Karlos Bakka-" Vilyarreal", Radamel Falkao- " Monako", Luis Muriel -" Sevilya") çox güclü futbolçulardan təşkil olunub. Bu komandalar yalnız bir dəfə Kolumbiyada keçirilən yoldaşlıq görüşündə qarşılaşıblar və oyun heç-heçə (2:2) bitib.

Bu gün Kolumbiya və Seneqal arasında görüş mundialın ən gərgin oyunlarından biri ola bilər...







Bu gün G qrupunda qarşılaşacaq İngiltərə və Belçika artıq növbəti mərhələyə vəsiqə qazanıb. Hər iki komandanın aktivində 6 xal var. Panama və Tunis isə xal qazanmayıb.

Belçika millisi bu mundialın ən iddialı komandaları sırasında göstərilir. Bu komanda elə seçmə mərhələdə olduğu kimi, çox məhsuldar oynayır. 2014-cü il Braziliya mundialında Belçika qrupda 9 xal toplaya bilmişdi. Əlcəzair, Rusiya və Koreya yığması ilə bir qrupda mübarizə aparan belçikalılar pley-off mərhələsində ABŞ-ı yalnız əlavə olunmuş vaxtda uda bildi. 1/4 mərhələsində isə 8-ci dəqiqədə Argentina millisindən qol "yeyən" belçikalılar oyunun taleyini dəyişə bilmədilər.

Seçmə mərhələdə Belçika millisi Yunanıstan, Bosniya, Estoniya, Kipr və Cəbəllütariklə bir qrupda mübarizə aparıb. "Qırmızı ilbizlər" qrup mərhələsində 9 oyunda meydanlardan qalib ayrıldılar. Yalnız öz meydanlarında yunanlarla oyunda heç-heçə etdilər. Rəqib qapılardan 43 top keçirən Belçika, qapısından cəmi 6 top buraxdı. Nəticədə 30 mümkün xaldan 28-ini aktivlərinə yazdırdılar.

Belçikanın yer aldığı qrupda növbəti mərhələyə xüsusi çətinlik olmadan keçəcəyi gözlənilirdi. Bu gözləntilər isə tam doğruldu.

Braziliya mundialındakı uğursuzluqdan sonra İngiltərənin bu çempionatda işləri hələ ki yaxşı gedir. Yada salaq ki, ötən çempionatda İngiltərə İtaliya və Uruqvaya məğlub oldu, Kosta-Rika ilə heç-heç edərək qrupdan erkən evə döndü.

2016-cı ilin sentyabrından yığmaya rəhbərlik edən yerli məşqçi Qaret Sautqeyt maraqlı və əsasən gənclərdən ibarət komanda yaradıb.

Belçika və İngiltərə bu mundialadək iki dəfə bir qrupda mübarizə apanblar. 1954-cü il mundialında və 1980 Avropa çempionatında. 1954-cü ildə komandalar heç-heçə oynayıb. Avropa çempionatın qrup mərhələsində də oyun 1:1 hesabı ilə başa satıb. 1990-cı il mundialında isə 1/8 finalda İngiltərə 1:0 hesabı ilə qalib gəlib. Bundan başqa, komandalar düz 18 dəfə yoldaşlıq görüşündə qarşılaşıblar. Ümumilikdə keçirilən 21 qarşılaşmanın 15-də ingilislər qalib gəlib, yalnız 1 görüşdə məğlub olublar, 5 oyunda isə qalib müəyyənləşməyib.

İngilislər bu mundialın hələ ki ən məhsuldar komandası hesab edilir. Panama ilə oyun 6:1 hesabı ilə ingilislərin xeyrinə başa çatıb. Həmin oyunda iki top vuran Harri Keyn 5 qolla bombardirlər siyahısına başçılıq edir.

Belçikanın futbolçusu Romelu Lukakunun hesabında isə 4 top var. Yeri gəlmişkən, Tunislə matçda zədələnən 25 yaşlı hücumçunun bu gün meydana çıxacağı gözlənilir. Amma mümkündür ki, baş məşqçi qarşıdakı mühüm oyun ərəfəsi ona istirahət dəversin. Bu gün komandaların açıq futbol oynayacağı o qədərdə real deyil. Amma iki güclü rəqibin qarşılaşmasının maraqlı oyun göstərəcəyinə inanmaq olar.

***

Panama və Tunis oyunu isə heç nəyi həll etmir. Hər iki komanda çalışacaq ki, mundialı qələbə ilə başa vurub ölkəsinə qayıtsın.

❑ Nazìm SABÌROĞLU,
"Yenì Müsavat"





# YENİ MÜSAVAT

## Son səhifə

N 137 (7026) 28 iyun 2018




## Pendir görəndə ağlayan qadın

İsveçin Bari şəhərinin sakini panikalı xəstəliyi barədə jurnalistlərə danışıb. “The Daily Express” qəzetinin məlumatına görə, 33 yaşlı Anna Bondesson bildirib ki, pendirin bir növü onu ağlamağa vadar edir. Biznes analitik kimi çalışan qadın qorxusunun təbiətini izah edə bilmir. Fobiyasını isə əyləncəli hesab edərək, onunla mübarizə etməyi düşünmür. Bondesson deyir ki, məhz bu səbəbdən marketlərin pendir şöbəsinə ayaq basmır. Səbəb “o sarı, iyli zəhər”lə qarşılaşmamaq istəyidir. Qızın sözlərinə görə, başqaları pendir yeyəndə o, özünü həyəcanlı hiss edir: “Bir dəfə iş yoldaşım mikrodalğalı sobaya pendirli piroq qoydu ki, qızdırsın. Az keçmədən onun qoxusu yayıldı və mən panikaya qapıldım".

Qadın bu qorxusuna görə sevgilisi ilə ayrılmaq zorunda qalıb: “Bir dəfə mən onun evinə qonaq getmişdim. O, qonaq otağına əlində pendir dolu boşqabla girdi və mənə onu tutmağımı dedi. Mən otaqdan ağlayaraq çıxdım və təbii ki, biz bir daha görüşmədik”.

Bondessonun fobiyası unikal deyil. Fevralda tələbə Loren Dodd da jurnalistlərə ketçup qorxusundan danışmışdı.

## Uşaq qumda yeridi, ayaqları yandı

Üç yaşlı qız Yedinburq çimərliyində qızmar qumun üstündə yeridiyi üçün ayaqları yanıb. Bu barədə “Daily Record” nəşri xəbər verib. Onun 31 yaşlı anası Cil Şou danışıb ki, uşağı ilə çimərlikdə oynamaq istəyib. Qızı ilə çimərlikdə yarış keçirmək istəyən ana onunla qaçmağa başlayıb. Öncə müəyyən edilən yerə qızı çatıb və hündürdən qışqırmağa başlayıb. Anası görüb ki, qızının ayaqları bir anda yanıb.

Qadın qızını təcili xəstəxanaya çatdırıb. Xəstəxanada qızın ayaqlarına dərhal müdaxilə ediblər və bintlə sarıblar. Hazırda uşaq yeriyə bilmir və həkim nəzarəti altında tibb məntəqəsində qalıb. Qadının düşüncəsinə görə, qumun bu dərəcədə qaynar olmasının səbəbi onların gəlişindən öncə kimlərinsə orada ocaq qalamasıdır. Qadın yay əyləncəsinə meyl edənləri daha diqqətli olmağa çağırıb.



## Panda hücumuna görə 80 min qazandı

Panda tərəfindən hücuma məruz qalan çinli 80 min dollar məbləğində kompensasiya alıb. Hadisə martın 14-də baş verib. Heyvan kəndə hücum edib, kənd əhli isə onu yaxalamaq üçün ağacdan yerə düşməsini gözləyib. Və bir gün panda çirk içində zərərçəkmişin üstünə cumaraq, ayağını dişləyib. Panda kişini o vaxt buraxıb ki, başqa bir kənd sakini onun üstünə paltosunu ataraq çaşdırıb. Bununla belə, son məqamda panda qaçmağa nail olub. Baş vermiş hücum nəticəsində kişi 7 saat davam edən əməliyyat keçirib. Bundan sonra çinlinin oğlu meşə təsərrüfatı idarəsinin yerli məmurlarını məhkəməyə verib. Onun şikayət ərizəsində qeyd edilib ki, meşələrdə hazırda 100 vəhşi panda var. Danışıqlardan sonra məmurlar 520 min yuan, yəni 83 min dollar məbləğindəki kompensasiyanı ödəməyə razılaşıblar. Kişi özü isə nəticədən razı qaldığını deyib. Bu pullar onun əməliyyat məsrəflərinə sərf olunacaq. Bununla yanaşı, yenidən cərrahi müdaxilə lazım ola bilər.



## Vizası olmasa da... əri çamadanla qaçırdı

Fransa vətəndaşı öz həyat yoldaşını Polşaya çamadanın içində qaçırmaq istəyəndə yaxalanıb. Lenta.ru saytının xəbərinə görə, Polşa sərhədçiləri ər-arvadı qatardan düşürüblər. Adı açıqlanmayan kişi bildirib ki, Rusiya vətəndaşı olan arvadını çamadanda ölkədən qaçırmaq istəməsinin özəl səbəbi olub. Belə ki, buna səbəb qadına Şengen vizasının verilməməsi səbəb olub. Bildirilib ki, sərhədçiləri kişinin hədsiz dərəcədə böyük çamadanı şübhələndirib. Onlar son vaxtlar bir çox vətəndaşların qeyri-qanuni yollarla ölkəni tərk etməyə cəhd etdiyini, amma ilk dəfədir ki, bu üsuldan istifadə etdiklərini deyiblər. Məlum olub ki, sərhədi keçəndə çamadandan gələn qəfil səs sərhədçiləri hərəkətə gətirib. Çamadandan çıxarılan qadın özünü normal hiss etdiyini deyib, amma qəfil bir zərbə onun səsini çıxarıb yaxalanmasına səbəb olub. Həyat yoldaşını bu yolla ölkədən çıxarmaq istəyən kişinin 3 il müddətinə azadlıqdan məhrum ediləcəyi gözlənilir.




**QOÇ** - Vaxtınızın əsas hissəsini sevgi amilinə həsr edin. İkili görüşlər, maraqlı gəzintilər sizə fərəh gətirəcək. Saat 15-18 arası maliyyə problemlərinizin həlli üçün uğurlu vaxtdır.

**BUĞA** - Sağlıq durumunuzu nəzarətdə saxlayın. Orqanizminizi gümrahlaşdırmaq üçün mümkün tədbirləri həyata keçirin. Bunun üçün ən rahat yol pəhriz saxlamaqdır. Maddi sıxıntılarınız azalmaqdadır.

**ƏKİZLƏR** - İş yerində mübahisələriniz gözlənilir. Belə neqativ hallardan yayınmaq üçün davranışlarınızda nəzakətli olun. İndiki məqamda belə şeylər yaramaz. Büdcənizi sağa-sola səpməyin.

**XƏRÇƏNG** - Yeni görüş və danışıqlar üçün uğurlu təqvimdir. Özünüzü təmkinli və dözümlü aparın ki, sövdələşmələrin nəticəsi xeyrinizə olsun. Özünüzü yerli-yersiz tərifləməyin. Sadə olun.

**ŞİR** - Saat 16-ya qədər ümumi ovqatınızda gərginlik müşahidə olunduğundan əsas gücünüzü istirahətə yönəltməlisiniz. Bu gün sizə soyuq və duzlu qidalar qəbul etmək məsləhət görülmür.

**QIZ** - Hər mənada səmərəli təqvimdir. Bir tərəfdən perspektivli görüşlər, digər tərəfdənsə sevindirici xəbərlər ovqatınızı xeyli yüksəldəcək. Axşam dostlarınızla birgə gəzintiyə çıxın.

**TƏRƏZİ** - Ümumi kosmik mənzərə səhhətinizlə bağlı diqqətli olmağı tövsiyə edir. Belə ki, qara ciyərinizlə bağlı problemləriniz mümkündür. Fəaliyyət istiqamətində isə çətinliyiniz gözlənilmir.

**ƏQRƏB** - İşgüzar sövdələşmələrdə iştirak etmək üçün olduqca səmərəli gündür. Müzakirələr apardığınız həmsöhbətləriniz sizə xeyirli olan fikirlər söyləyəcək. Qərarlarınızda qətiyyətli olun.

**OXATAN** - Sağlamlığınızla bağlı çətinliyinizi dəf edə bilsəniz, qarşıya qoyduğunuz planları reallaşdıra biləcəksiniz. Hətta nahardan sonra varlanma ehtimalınız da var. Özünüzə təzə bir şey alın.

**OĞLAQ** - Bu gözəl təqvimdə mistikaya uymamaq lazımdır. İş barədə düşünməyin, qonaq gedin. Bu gün enerjinizin çoxluğu qarşınızda duran bəzi maneələrin aradan qalxmasına təkan verəcək. Təki səbrli olasınız.

**SUTÖKƏN** - Maliyyə problemlərinə görə özünüzü üzməyin. Çünki ulduzların düzümü qarşıdakı həftədə bu istiqamətdə sevinəcəyinizi bildirir. İkitərəfli əməkdaşlıqdan imtina etməyin.

**BALIQLAR** - Səhhətinizlə bağlı bəzi xoşagəlməzlikləri nəzərə almasaq, günün əsas hissəsini rahat şəraitdə başa vura bilərsiniz. Mübahisələrdən uzaq olun. Axşama yaxın önəmli xəbər eşidəcəksiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Sevgidən qurtulmaq istəyirsizsə... evlənməlisiz



Dünyada çox yayılan bir fikrə görə, evlilik sevgini öldürür. Türkiyəli psixiatr Mehmet Sungur isə açıqlayıb ki, əslində sevginin dərmanı evlənməkdir. M.Sungur bildirib ki, sevgi görmə qüsuruna, evlilik isə həqiqətləri görmə xəstəliyinə dərmandır.

İnsanlar aşiq olanda onlar düşdükləri bu vəziyyətdən ancaq bir-birinə qovuşanda çıxa bilir. Aşiq olan zaman münasibətlər fərqlidir. O zaman həyatın tək nöqtəsi sevdiyin insan olur, heç nəyi görmək istəmirsən və sair. Amma insan evlənəndə bunların hamısı sona çatır. Evlilik insanları bir-biri üçün adiləşdirir. Daha dəqiq desək, sevgi xəyal edilənlə gerçək arasındakı fərq ortaya çıxana qədər keçən zamandır.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100